

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## YAP İdarə Heyətinin iclası keçirilib




3

# Məqsəd aqrar sektorun davamlı inkişafıdır!



*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva XVI "Caspian Agro" və XXVIII "InterFood Azerbaijan" sərgiləri ilə tanış olublar*

SƏS
№ 086 (6769)
18 may 2023-cü il.
Qiyməti 60 qəpik

# İrəvanın çobanyastığı proqnozu

*Ermənistanla Azərbaycan arasında aparılan sülh müzakirələrinin məntiqi sonluqla bitməməsinin səbəbləri çoxdur. Amma bir səbəb var ki, onsuz Ermənistanın qərar verməsi, sadəcə, mümkün deyil. Çünki bu ölkə hələ də, yumşaq desək, kimin çətiri altında özünü yağışdan, günəşdən qoruyacağını qətiləşdirə bilməyib. Kimin yanında, kimin qucağında, kimin ətəyindən yapışaraq duracağını erməni dövləti hələ də müəyyənləşdirməyib.*



5

## "Erməni təxribatlarının qarşısını almaq üçün ..."



8

## Daş yaddaşımıza salınan izlər: tarixi və ZƏFƏR muzeylərimiz



11

## Bayramla əlaqədar 3 gün iş olmayacaq



16

## Qarabağ: Ağdamın Azərbaycan iqtisadiyyatındakı rolu

15




## 13-ü 37-yə rəva bilən...



13

# Məqsəd aqrar sektorun davamlı inkişafıdır!

## *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva XVI "Caspian Agro" və XXVIII "InterFood Azerbaijan" sərgiləri ilə tanış olublar*





***Mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı Ekspo Mərkəzində XVI Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı - "Caspian Agro" və XXVIII Azərbaycan Beynəlxalq Qida Sənayesi - "InterFood Azerbaijan" sərgiləri ilə tanış olublar.***









Kənd təsərrüfatı naziri Məcnun Məmmədov dövlətimizin başçısına və birinci xanıma sərgilərlə bağlı məlumat verdi. Bildirildi ki, hər il olduğu kimi bu il də sərgilərə iştirakçılar və ziyarətçilər tərəfindən böyük maraq göstərilir. Bakı Ekspo Mərkəzinin bütün mümkün pavilyonlarını və açıq sahəsini əhatə edən sərgilərdə rekord sayda milli və regional stendlər nümayiş olunur. Ümumilikdə sərgilərdə 31 ölkədən 479 şirkət iştirak edir, 9 ölkə isə milli stendlərlə təmsil olunur. "Caspian Agro" və "InterFood Azerbaijan" sərgilərində ABŞ, Almaniya, Belarus, Gürcüstan, İtaliya, Niderland, Şri-Lanka, Rusiyanın regional qrupları, eləcə də builki debütant ölkə Tunis və Çexiyadan olan milli qruplar iştirak edirlər.

Dövlətimizin başçısı və birinci xanım sərgidə "Grow Group Azərbaycan", "Maschio Gaspardo", "New Holland", "Rostselmaş", "MySilo", "Rauch Landmashchinen", "SwissGrow", "AfiMilk", "Gowan", "Can-Pa" şirkətlərinin, Çexiyanın, İtaliyanın, Belarusun, Gürcüstanın, ABŞ-ın və Niderlandın stendləri ilə tanış oldular. Stendlərdə ən müasir kənd təsərrüfatı texnikaları, əkinbiçin aqreqatları və kənd təsərrüfatı məhsulları təqdim olunur.

Naxçıvan Muxtar Respublikasının stendi ilə tanışlıq zamanı bildirildi ki, kənd təsərrüfatı məhsullarının istehsalında ərzaq və qida təhlükəsizliyi başlıca şərtlərdən biridir və Naxçıvan fermerləri daha çox orqanik məhsulları yetişdirməyə üstünlük verirlər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kənd Təsərrüfatı Nazirliyinin pavilyonu ilə tanış oldular. Burada Ümummilli Lider Heydər Əliyevə həsr olunan xüsusi təqdimat hazırlanıb. Bildirildi ki, bu il xalqımız müasir Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyini qeyd edir. Buna görə də sərgilər də məhz Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunub. Azərbaycanda aqrar sahənin inkişafı Ulu Öndərin fəaliyyəti ilə sıx bağlıdır. Ümummilli Lider Heydər Əliyevin siyasi kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimizin başçısının qəbul etdiyi qərarlar, imzaladığı fərman və sərəncamlar ölkə iqtisadiyyatının, o cümlədən aqrar sektorun davamlı inkişafına real zəmin yaradır.

Pavilyonda, həmçinin Elmi-Tədqiqat İnstitutlarının ən son nailiyyətləri, yaşıl enerji mənbələrinə dair qurğu və məhsullar nümayiş olunur.

Burada müxtəlif yarış və müsabiqələrin qalib aqrar startapçıları tərəfindən arıçılıqda "varatoz" gənəsinə qarşı mübarizə, ənənəvi balıqyetişdirmə üsullarını hidroponik əkinçiliklə birləşdirən sistem, bioqaz, alternativ enerji mənbələrindən əldə edilmiş hidrogen qazı, ağıllı istixana idarəetmə sistemi, alaq otlarını lazer sistemi ilə təmizləyən aqrorobot, avtomobillər üçün portativ qida bloku, külək və günəş izləmə qurğuları, idarəolunan günəş panelləri, uzaqdan idarəolunan sayğaclar, külək turbinləri, iqlim stansiyası, dəqiq suvarma idarəçiliyi üçün sensor, suvarmada istifadə olunan günəş enerjisi ilə işləyən inventorlar sərgilənir.

Ölkəmizdə bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatında da innovasiyaların və müasir texnologiyaların tətbiqi dövlət tərəfindən dəstəklənir. Kənd təsərrüfatının intensiv inkişafı həm də aqrar sektorda innovasiyaların tətbiqindən birbaşa asılıdır. Aqrar sahələrdə innovasiyalardan istifadə günümüzün çağırışı olduğundan sərgilər kənd təsərrüfatı məhsullarının istehsalçılarına bu innovativ yeniliklərlə əyani tanış olmağa imkan verir.

Bildirildi ki, "Caspian Agro" və "InterFood Azerbaijan" sərgilərində KOBİA-nın dəstəyi ilə qida sənayesi və kənd təsərrüfatı sahələrində fəaliyyət göstərən mikro və kiçik sahibkarlıq subyektləri də öz məhsul və xidmətlərini təqdim edirlər.

Sərgi çərçivəsində açıq sahədə kənd təsərrüfatında istifadə olunan texnikalar nümayiş olunur. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Azərtexnika" MMC, "Agritex" MMC, "Agromotors" şirkətlərinin və Gəncə avtomobil zavodunun texnikaları ilə tanış oldular.

Qeyd edək ki, üç gün davam edəcək sərgilər çərçivəsində Aqrar İnnovasiyalar Forumu təşkil olunacaq. Forumda "Kənd təsərrüfatının inkişafında Heydər Əliyevin uğurlu aqrar siyasəti", "Kənd təsərrüfatında innovativ həllərə əsaslanan texnologiyalar", "Orqanik kənd təsərrüfatı", "Rəqəmsal kənd təsərrüfatı", "Yaşıl kənd təsərrüfatı" və digər mövzular müzakirə ediləcək.

"InterFood Azerbaijan" sərgisi çərçivəsində dekorativ yeməklərin kompozisiyasından ibarət "Qida – sənət əsəri" sərgisi, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Qızıl Şah - Qızıl Yüzlük" III Milli Kulinariya Çempionatı da təşkil ediləcək.

# Azərbaycan və Qazaxıstan prezidentləri arasında telefon danışığı olub



*Mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevə zəng edib. Dövlətimizin başçısı Kasım-Jomart Tokayevi yubileyi münasibətilə təbrik edib, ona möhkəm cansağlığı, Qazaxıstanın inkişafı və firavanlığı naminə fəaliyyətində yeni-yeni uğurlar arzulayıb.*

Qazaxıstan Prezidenti göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib. Azərbaycan Prezidenti bu ilin aprelində Qazaxıstana səfərini məmnunluqla xatırlayaraq, göstərilən qonaqpərvərliyə görə bir daha minnətdarlığını bildirib, səfərin uğurla nəticələndiyini və ikitərəfli münasibətlərin inkişafına güclü təkan verdiyini vurğulayıb.

Telefon söhbəti zamanı dövlət başçıları Azərbaycanla Qazaxıstan arasında dostluq və qardaşlıq münasibətlərinin gələcək inkişafı ilə bağlı məsələləri müzakirə ediblər.

# Azərbaycan Prezidenti İlham Əliyev Avrasiya İqtisadi Komissiyası Kollegiyasının sədrini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Avrasiya İqtisadi Komissiyası Kollegiyasının sədri Mixail Myasnikoviçi qəbul edib. Mixail Myasnikoviç Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı, Ulu Öndərin böyük tarixi şəxsiyyət kimi Azərbaycanın inkişafında müstəsna rolunu qeyd etdi.

Görüşdə Azərbaycanın Avrasiya İqtisadi İttifaqına daxil olan üzv dövlətlərlə ticarət dövriyyəsinin və ticarət imkanlarının genişləndirilməsi barədə müzakirələr aparıldı. Mixail Myasnikoviç Prezident İlham Əliyevə əməkdaşlıq istiqamətləri barədə təkliflər verdi.

# "Əməkdaşlığın genişləndirilməsi üçün böyük potensial var"



***Prezident İlham Əliyev mayın 17-də Slovakiya parlamentinin sədri Boris Kolları qəbul edib. Dövlətimizin başçısı Boris Kolların rəhbərlik etdiyi nümayəndə heyətinin Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Azərbaycan Respublikası Milli Məclisinin xüsusi iclasında iştirakına görə təşəkkürünü bildirdi, bunu ölkələrimiz arasında əlaqələrin yaxşı göstəricisi kimi dəyərləndirdi.***

Prezident İlham Əliyev Azərbaycanla Slovakiya arasında fəal dialoqun həyata keçirilməsindən məmnunluğunu bildirərək Boris Kolların səfərinin əməkdaşlığın perspektivləri ilə bağlı müxtəlif sahələrdə, o cümlədən parlamentlərarası əlaqələrin inkişafı üzrə müzakirələrin aparılması üçün yaxşı imkan yaratdığını dedi.

Enerji sahəsində əlaqələrə toxunan dövlətimizin başçısı bu ilin aprelində Sofiyada Bolqarıstan, Rumıniya, Macarıstan, Slovakiyanın ötürücü sistem operatorları və SOCAR arasında Anlaşma Memorandumunun imzalanmasının önəmini qeyd etdi, "Həmrəylik Halqası" STRİNG layihəsi çərçivəsində də ölkələrimiz arasında əməkdaşlığın yeni mərhələyə qədəm qoyduğunu bildirdi. Prezident İlham Əliyev ticarət, qarşılıqlı investisiya qoyuluşu, nəqliyyat sahələrində də əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu vurğuladı.

Göstərilən qonaqpərvərliyə görə minnətdarlığını ifadə edən qonaq Ulu Öndərin anadan olmasının 100 illiyi münasibətilə keçirilən tədbirdə iştirak etməkdən şərəf duyduqlarını vurğuladı. Ulu Öndərin böyük müdrikliyə və güclü iradəyə malik, xarizmatik şəxsiyyət olduğunu, Azərbaycanın dövlətçiliyinin əsasını qoyduğunu deyən Slovakiya parlamentinin sədri məhz onun uzaqgörənliyi nəticəsində ölkəmizin davamlı surətdə inkişaf etdiyini diqqətə çatdırdı.

Azərbaycanın çox müasir və gözəl olduğunu vurğulayan Boris Kollar ölkəmizə ikinci dəfə gəldiyini dedi, ötən il Şuşaya səfərini məmnunluqla xatırladı.

Slovakiyanın Azərbaycanın ərazi bütövlüyünü tam və qəti şəkildə dəstəklədiyini deyən Boris Kollar işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və quruculuq işlərini qeyd etdi, orada Slovakiya şirkətlərinin də fəaliyyət göstərməkdə və müxtəlif layihələrdə iştirak etməkdə maraqlı olduğunu diqqətə çatdırdı.

Minatəmizləmə sahəsində Azərbaycanın Slovakiya şirkətləri ilə səmərəli əməkdaşlığına toxunan qonaq ölkəsində istehsal olunan minatəmizləmə maşınlarının humanitar minatəmizləmə fəaliyyəti üçün ərazidə səmərəli şəkildə tətbiq olunmasını xüsusi vurğuladı.

Söhbət zamanı ölkələrimiz arasında enerji sahəsində gələcək əməkdaşlıq məsələləri müzakirə olundu, bu yaxınlarda Bolqarıstanda əsası qoyulmuş "Həmrəylik Halqası" təşəbbüsü çərçivəsində Azərbaycan qazının Slovakiyaya çatdırılması istiqamətində böyük perspektivlərin olduğu bildirildi. Görüşdə Slovakiyanın Azərbaycanın Avropa İttifaqı və NATO ilə əməkdaşlığına verdiyi dəstək yüksək qiymətləndirildi.

# YAP İdarə Heyətinin iclası keçirilib




*Mayın 17-də Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin videokonfrans formatında iclası keçirilib. YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov iclasın gündəliyi barədə məlumat verib.*





İclasın müzakirəsinə YAP Hacıqabul rayon təşkilatının sədri Elnur Mehman oğlu Əmirəslanovun vəzifəsindən azad edilməsi, YAP Gəncə şəhər təşkilatına və YAP Hacıqabul rayon təşkilatına sədrlərin təyin olunması, Yeni Azərbaycan Partiyasının üzvlüyündən xaric edilməsi təklif olunan şəxslərlə bağlı partiyanın rayon (şəhər) təşkilatlarının təqdimatlarına baxılması və cari məsələlər çıxarılıb.

İclasda ilk olaraq YAP Hacıqabul rayon təşkilatının sədri Elnur Mehman oğlu Əmirəslanovun səhhəti ilə bağlı vəzifəsindən azad edilməsi barədə ərizəsinə baxılıb və müvafiq qərar qəbul olunub.

Sonra YAP Gəncə şəhər təşkilatının sədri vəzifəsinə partiyanın İdarə Heyətinin üzvü Bayram Mirazim oğlu Aslanovun və YAP Hacıqabul rayon təşkilatının sədri vəzifəsinə İsmayıl Hüseyn oğlu İbrahimovun təyin olunması məsələsinə baxılıb. YAP İdarə Heyətinin üzvləri Hikmət Məmmədov, Musa Quliyev, Pərvin Kərimzadə, Amin İsmayılov, Asif Əsgərli, Tofiq Cahangirov və Elmar Qasımov çıxış edərək hər iki şəxsin namizədliyini dəstəklədikləri bildirib və onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

Müzakirələrdən sonra Bayram Mirazim oğlu Aslanovun YAP Gəncə şəhər təşkilatının sədri, İsmayıl Hüseyn oğlu İbrahimovun isə partiyanın Hacıqabul rayon təşkilatının sədri vəzifəsinə təyin olunması haqqında qərar qəbul olunub. Bayram Aslanov və İsmayıl İbrahimov çıxış edərək təşəkkürlərini bildirib və göstərilən etimadı layiqincə doğrultmağa çalışacaqlarını vurğulayıblar.

İdarə Heyətinin iclasında Yeni Azərbaycan Partiyasının üzvlüyündən xaric edilməsi təklif olunan şəxslərlə bağlı YAP rayon (şəhər) təşkilatlarının təqdimatlarına da baxılıb. YAP İdarə Heyətinin üzvləri Bahar Muradova və Elmar Qasımov çıxış edərək məsələyə münasibət bildiriblər. 15 nəfərin partiyanın nüfuzuna xələl gətirən hərəkətlərinə görə YAP sıralarından xaric olunmasına dair qərar qəbul olunub.

Cari məsələlərlə bağlı müzakirələr zamanı isə YAP İdarə Heyətinin üzvləri Musa Quliyev, Tahir Mirkişili, Kamal Cəfərov və Elmar Qasımov çıxış edərək fikir və təkliflərini səsləndiriblər.

# Haqlı qalib AZƏRBAYCAN!

## *PREZİDENT İLHAM ƏLİYEV: "Heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz"*



***Prezident İlham Əliyev mayın 3-də Şuşada ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan xalqına müraciətində bildirib ki, Azərbaycan güclü dövlətdir və heç bir kənar qüvvə iradəmizi sındıra bilməz və bu gün Azərbaycan Ulu Öndərin yolu ilə gedərək öz dövlət müstəqilliyini daha da möhkəmləndirib: "Bu gün, sözün əsl mənasında, müstəqil xarici və daxili siyasət apara bilən ölkələrin sayı dünyada çox məhduddur. Azərbaycan o ölkələrdəndir ki, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Çünki güclü iradəmiz var, güclü ordumuz var və eyni zamanda, güclü imkanlarımız var".***

Bəli, regional güc mərkəzi olan Azərbaycan müstəqil xarici siyasət həyata keçirir və daxili siyasətə uyğundur, başqa sözlə, bu kursu tamamlayır. Reallaşdırılan uğurlu daxili və xarici siyasətin fonunda Azərbaycanın dinamik inkişaf strategiyası rasional səciyyə daşıyır, eləcə də ölkəmiz heç bir beynəlxalq qurumdan, milli dövlətdən asılı olmayan müstəqil siyasət kursuna malikdir. Yəni Azərbaycanda həyata keçirilən siyasət sırf ölkənin milli maraqlarına söykənir və əsas strateji hədəf uzunmüddətli inkişafın təmin olunması, beynəlxalq mövqelərin daha da möhkəmləndirilməsidir. Bütövlükdə, milli maraqlar Azərbaycanın siyasi kursunun əsasını təşkil edir. Amma bəzi dairələr Azərbaycanın müstəqil daxili və xarici siyasətini narahatlıqla qarşılayır, bu kontekstdə öz məhdud geosiyasi maraqları naminə ölkəmizin daxili və xarici siyasət kursuna müdaxilə etməyə çalışırlar. Azərbaycan dövlətinin milli - suveren siyasi iradəsi onu tələb edir ki, ikitərəfli münasibətlər sırf qarşılıqlı hörmət əsasında davam və inkişaf etdirilsin, həm daxili, həm də xarici arenada milli maraqlar əsas strateji prinsip kimi qəbul edilsin.

Prezident İlham Əliyevin söylədiyi kimi: "Biz müstəqil siyasət aparırıq. Buna görə bir çox hallarda hədəfə çevrilirik. Bizə qarşı olan təzyiqlər, qarayaxma kampaniyalarının əsas səbəbi də odur ki, biz həmişə özümüzü ləyaqətlə aparırıq. Bütün auditoriyalarda, açıq və qapalı görüşlərdə sözümüzü deyirik, xalqımızın, dövlətimizin maraqlarını müdafiə edirik. Bəzilərinin bundan xoşu gəlmir. Ona görə müxtəlif yollarla bizə təzyiq etməyə başlayırlar". Çünki haqqın nalibi Azərbaycandır və

### HAQQ YOLUNDA ADDIMLAYANIN KÖMƏYİ ÇOX, DÜŞMƏNİ YOX OLAR!

Çünki qələbəmizin rəmzinə çevrilən - Qarabağ Azərbaycandır və nida! Böyük mütəfəkkir Viktor Hüqo vaxtilə yazırdı: "Əsl Liderin ömrünün yarısı Vətənə, digər yarısı da xalqa xidmət etməkdən ibarətdir". Bu gün müstəqil Azərbaycanı güclü edən, onu sabitlik məkanına çevirən əsas amil də məhz xalqımızın ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirən Heydər Əliyev ideyalarına olan sonsuz sədaqətidir. Məhz elə buna görədir ki, 19 il əvvəl "Mən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam" məramı ilə Prezident İlham Əliyevin həyatı xalqına və Vətəninə həsr olunmuş əsl lider ömrüdür. Cənab İlham Əliyev Ulu Öndərimizin "Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır" fikirlərini reallığa çevirərək bir daha isbat etdi ki, O, məhz Vətəninin, xalqının rifahı üçün yaşayan Liderdir.

Prezident İlham Əliyev xalqa müraciətində də bildirib ki, biz döyüş meydanında, siyasi müstəvidə, istənilən formatda gücümüzü göstərmişik, müstəqilliyimizi göstərmişik: "Bu müharibə bütün dünyaya Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu göstərdi - yenilməz xalq, dəmir iradəli xalq, müzəffər xalq, müzəffər ordumuz. Biz xalqımızla, ordumuzla fəxr edirik".

Bəli, 44 gün ərzində baş verən İkinci Vətən Müharibəsi Azərbaycan xalqının 30 ilə yaxın davam edən torpaq həsrətinə son qoyuldu. Prezident İlham Əliyev nəyi necə və nə zaman etməyi özünün yaxşı bildiyini bir daha nümayiş etdirdi. Bu həm də xalqımızın birliyinin, Müzəffər Ordumuzun Gücünün, qəhrəman əsgər və zabitlərimizin öz Ali Baş Komandanı, Prezident İlham Əliyev ətrafında birliyinin dünyaya nümayişi oluğunun reallığıdır.

Artıq dünya birliyi, nəhayət ki, Ermənistanın beynəlxalq səviyyədə götürdüyü öhdəlikləri kobud şəkildə pozmaqda davam etdiyinin, sülh, atəşkəslə bağlı çağırışlara məhəl qoymadığının şahidi olur. Şahidi olurlar ki, işğalçı dövlətinin ordusunun sərhədboyu ərazilərdə ağlasığmaz qəddarlıqlar nəticəsində minlərlə dinc azərbaycanlı həlak olub, kəndlər, qəsəbələr, taixi-mədəni abidələr viran edilib. Dünya birmənalı şəkildə Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi faktını qəbul edir, beynəlxalq hüquq normalarına uyğun olaraq onu işğal altında saxladığı əraziləri azad etməyə çağırır. Çünki

### AZƏRBAYCAN SABİTLİK ADASIDIR, TƏHLÜKƏSİZLİK ADASIDIR

Prezident İlham Əliyev mayın 3-də Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan xalqına müraciətində bildirib ki, mstəqillik ən böyük nemətdir, ən böyük sərvətdir: «Bu gün biz bütün azərbaycanlılar qürur hissi ilə qeyd edirik ki, biz sözün əsl mənasında, müstəqil ölkə kimi yaşayırıq».

Azərbaycanda təhlükəsizliyin təmin edildiyini, əmin-amanlıq hökm sürdüyünü vurğulayan dövlətimizin başçısı deyib: "İndi dünyanın hər bir yerində müharibələr, toqquşmalar, qarşıdurmalar hökm sürür, hər gün biz bunu görürük. Azərbaycan sabitlik adasıdır, təhlükəsizlik adasıdır. Bu da böyük sərvətdir və Azərbaycan xalqı bunu yaxşı bilir. Çünki biz müstəqilliyimizin ilk illərində çətin günlər yaşamışdıq".

Prezident İlham Əliyev onu da bildirib ki, məhz haqqın yolunda addımlayan Azərbaycanın beynəlxalq nüfuzu yüksəlib: "Bu gün ölkəmizin beynəlxalq nüfuzu, görün, nə qədər yüksəlib. Bu gün beynəlxalq təşkilatlarda Azərbaycanın hörməti artır".

Dövlətimizin başçısı deyib: "Qoşulmama Hərəkatı kimi dünyanın ikinci beynəlxalq təsisatına 4 ilə yaxın biz rəhbərlik edirik və ümumi rəyə görə, ləyaqətlə rəhbərlik edirik. Əgər belə olmasaydı, bizim sədrlik müddətimiz 120 ölkənin yekdil səsi ilə daha bir il uzadılmazdı".

### PREZİDENT İLHAM ƏLİYEVİN QOŞULMAMA HƏRƏKATINA 4 İLƏ YAXIN RƏHBƏRLİK ETMƏSİ AZƏRBAYCAN LİDERİNİN QLOBAL NÜFUZUNDAN QAYNAQLANIR

Bəli, öz xarici siyasətində heç bir hərbi alyansa qoşulmamaq istiqamətini seçmiş Azərbaycan 2011-ci ildən Qoşulmama Hərəkatının üzvüdür. Və prosedura görə, Azərbaycanın sədrlik müddəti 2022-ci ildə bitməlidir, lakin hərəkata üzv dövlətlərin yekdil istəyi ilə bu müddət 2023-cü ilə qədər uzadıldı. Bu bir daha Azərbaycanın ədalətə, beynəlxalq hüquqa və multilateralizmə əsaslanan sədrliyinə verilən obyektiv və yüksək qiymətdir. Bu qərar Azərbaycanın və Azərbaycan Lideri İlham Əliyevin qlobal nüfuzundan qaynaqlanır. Və təbii ki, bu nüfuz Prezident İlham Əliyevin Azərbaycanın hərəkata sədrliyi dövründə həyata keçirdiyi siyasətin nəticəsində əldə olunub. Bu da onu göstərir ki, son 19 ildə Azərbaycanda həyata keçirilən mühüm tədbirlər beynəlxalq birliyin Azərbaycana inamının, etimadının təzahürü, ölkəmizin və Azərbaycan Prezidenti İlham Əliyev cənablarının qlobal miqyasda nüfuzunun göstəricisidir. Nəticədə isə, dövlət başçımızın dediyi kimi: "Biz həmrəylik, qarşılıqlı dəstək və təsisatlarımızın gücləndirilməsində tərəqqinin şahidi olacağıq".

### SON 20 İLDƏ AZƏRBAYCAN QƏDƏR SÜRƏTLƏ İNKİŞAF EDƏN İKİNCİ ÖLKƏ YOXDUR

"İqtisadi inkişafa gəldikdə, son 20 ildə dünya miqyasında Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə yoxdur. İqtisadiyyatımız 3 dəfədən çox artmışdır". Bu fikirləri Prezident İlham Əliyev mayın 3-də Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan xalqına müraciətində ifadə edib.

Valyuta ehtiyatlarımızın 65 milyard dollara çatdığını, valyuta ehtiyatlarımızın xarici borcu təxminən 10 dəfə üstələdiyini söyləyən dövlətimizin başçısı deyib ki, biz heç kimdən asılı deyilik, biz heç kimin işinə qarışmırıq. Amma heç kimə imkan vermirik və verməyəcəyik ki, öz burnunu bizim işimizə soxsun, istər siyasi məsələlər olsun, istər Azərbaycan-Ermənistan məsələləri olsun, istər Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağ olsun.

Bəli, bu gün Azərbaycan dünyada özünəməxsus milli inkişaf modeli ilə tanınır. Prezident İlham Əliyev bildirir ki, qarşımızda duran strateji vəzifə Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirmək və bütün sahələr üzrə onu dünyanın inkişaf etmiş, rəqabətədavamlı ölkələri sırasına çıxarmaqdır. Və siyasi və iqtisadi baxımdan davamlı inkişaf edən Azərbaycanın bugünkü nailiyyətləri məhz Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla, qətiyyətlə davam etdirilməsinin məntiqi nəticəsidir. Ulu öndərin qurub-yaratdığı, müstəqilliyini möhkəmləndirdiyi Azərbaycan hazırda sürətlə inkişaf edir, qarşıya qoyduğu hədəflərə doğru inamla irəliləyir.

Bir sözlə, Azərbaycanın lideri Prezident İlham Əliyev gördüyü işlərlə, yorulmadan və davamlı şəkildə çalışması, müdrik qərarları ilə xalqımızın ümid yerinə, uğur simvoluna, qurucu liderinə çevrildi. Bu, bundan sonra da belə olacaqdır!

***RƏFİQƏ KAMALQIZI***

# Rusiya Dövlət Dumasında "Heydər Əliyevin 100 illiyi" sərgisi açılıb








## Dövlət Dumasının komitə sədri Leonid Kalaşnikov: Heydər Əliyev Rusiyada yaxşı xatırlanır və onun töhfəsi yüksək qiymətləndirilir

***"Bu şəxsiyyətin böyüklüyü tələb edir ki, gənc nəsillər onun haqqında bilsinlər". Rusiya Dövlət Dumasının MDB işləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr komitəsinin rəhbəri Leonid Kalaşnikovun adını çəkdiyi şəxsin təqdimata ehtiyacı yoxdur. Bu gün Dövlət Dumasında məhz Heydər Əliyevdən danışırlar. Səbəb orada açılan, Azərbaycan xalqının ümummilli liderinin 100 illik yubileyinə həsr olunmuş sərgi və təbii ki, onun siyasi uğurları, keçdiyi həyat yolu idi.***

"Moskva-Baku" portalının əməkdaşları sərgidə olub və Dövlət Dumasının MDB işləri üzrə komitəsinin rəhbəri Leonid Kalaşnikovla söhbət edib. Deputatın fikirlərini oxucularımıza təqdim edirik.

L.Kalaşnikovun qeyd etdiyi kimi, Heydər Əliyev siyasətçi kimi bir neçə ömür yaşayıb. Onun siyasi həyatının ilk hekayəsi onun bir çox parlaq layihələr həyata keçirdiyi Moskva ilə bağlıdır. Sonra gediş oldu və bir müddət sonra həyatının ikinci siyasi səhifəsi onun üzünə açıldı- bu dəfə Azərbaycan Respublikasında.

"Əlbəttə, Heydər Əliyev haqqında hamı bilir, hamı onu xatırlayır. Üstəlik, çoxlarını maraqlandırır - niyə Qorbaçov Heydər Əliyeviçlə belə ədalətsiz davrandı? Çünki başa düşürdü: o, nəinki vəzifədə Qorbaçovu əvəzləməyə, hətta Sovet İttifaqını qoruyub saxlamağa, dövlətçiliyi qoruyub saxlamağa qadir adamdır. Heydər Əliyev çox istedadlı insandır. Tarixdə belə insanlar, əfsanəvi şəxsiyyətlər, siyasətçilər azdır ki, indi xatırlanır. Qriqori Romanov, Pyotr Maşerov və Heydər Əliyev: bunlar Sovet İttifaqına rəhbərlik edə biləcək insanlar idi. Ona görə də Qorbaçov Heydər Əliyevi tutduğu vəzifədən uzaqlaşdırdı.

Dövlət Dumasında Heydər Əliyevə həsr olunmuş sərgi Rusiyanın bütün regionlarının deputatlarına bu görkəmli siyasətçi haqqında danışmağa, onu xatırlatmağa imkan verir.

Heydər Əliyev də siyasi həyatının ikinci səhifəsini açdı... Artıq "təqaüdə çıxan", Qorbaçov tərəfindən təzyiqə məruz qalan Heydər Əliyev vətəndaş müharibəsindən yanan Azərbaycana qayıtdı. Onu doğma respublikada sadə insanlar çağırıb deyirdilər: "Xahiş edirik, Heydər Əliyev, qayıdın, görün nə baş verir!". Və o, onları eşitdi, dinlədi və çox şey etdi. O, Sovet İttifaqının dağılmasından sonra yeni müstəqil ölkəni süqut astanasına gətirən vətəndaş müharibəsini dayandırdı.

Sərgi niyə Dövlət Dumasında keçirilir? Əslində çox az adam bilir ki, Heydər Əliyev Naxçıvanın deputatı, sonra Naxçıvan MR parlamentinin sədri, sonra Azərbaycan parlamentinin deputatı, sonra isə parlamentin sədri olub. Növbəti addım yeni nəfəs verəcəyi, bu gün çiçəklənən dövlətin başçısı postu idi", - Leonid Kalaşnikov deyir.

Leonid Kalaşnikov Heydər Əliyev ilə şəxsən tanış deyildi, lakin etiraf edir ki, o, belə görkəmli siyasətçi ilə işləmək arzusunda olardı.

"Bir dəfə Azərbaycana səfərlərimin birində pravoslav keşişi xüsusi bir əhvalat danışdı. Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıdanda mübaliğəsiz Bakının küçələrində quldurlaat oynadırdılar- mən Sovet İttifaqı dağılandan sonra Azərbaycan Respublikasında da baş verən vətəndaş müharibəsindən danışıram. Baş verənləri görən və başa düşən Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi vaxtda bir dəfə bu pravoslav keşişinin yanına gəlib deyib: "Rus icmasını toplayın və onlara deyin ki, respublikadan çıxmasınlar. Axı onlar bizim "qızıl fondumuz"dur. Qoy qalsınlar". Heydər Əliyev ölkədəki bütün millətlərin nümayəndələri ilə belə danışırdı. Ona görə də bugünkü sərgi təkcə yubileylə bağlı deyil. Bu, son dərəcə vacib və zərudirdir.

Yeri gəlmişkən, bir neçə il əvvəl biz burada, Dövlət Dumasında ilk ölkə brifinqini keçirdik. Və bu layihənin başlanğıcı məhz Azərbaycandan verilib. Bundan sonra biz Rusiya turizminin Azərbaycana böyük artımının şahidi olduq", - deyə Leonid Kalaşnikov bildirib.

Heydər Əliyev necə işləyirdi? Bu suala Dövlət Dumasında Kommunist Partiyasının fraksiyasının rəhbəri Gennadi Züqanov da cavab verə bilər,- Leonid Kalaşnikov deyir.

"Onların Heydər Əliyeviçlə çoxlu iş görüşləri, səfərləri olub. O, tez-tez həmkarları ilə xatirələrini bölüşür. Gennadi Andreyeviçin atası Böyük Vətən Müharibəsi zamanı yaralanıb və bir il Bakıda müalicə olunub. Orada da ayağa qalxıb. Faktiki olaraq o, ölümcül yaralanmışdı. Gennadi Andreyeviç və Heydər Əliyeviç Mərkəzi Komitəyə birlikdə gəldilər. Əliyev daha yüksək rütbəli idi, lakin Gennadi Andreyeviç Mərkəzi Komitənin sektor müdiri kimi ona çox kömək etdi və Siyasi Büronun üzvü kimi ona bağlandı. Gennadi Andreyeviç və Heydər Əliyeviç birlikdə çox səyahət etdilər, Züqanov dünən Dövlət Dumasında Heydər Əliyevə həsr olunmuş sərginin açılışında onun həyatının bu səhifələrini, onunla əməkdaşlıq etdiyini xatırladı və danışdı "- Leonid Kalaşnikov dedi.

"Heydər Əliyev həm Sovet İttifaqının inkişafına, iqtisadiyyatının möhkəmlənməsinə, həm də SSRİ dağılandan sonra vətəni- Azərbaycanın inkişafına böyük töhfələr verib. Heydər Əliyev Rusiya ilə Azərbaycanın bir yerdə olması üçün çox işlər görüb. Münasibətləri dostluq, qarşılıqlı hörmət və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında qurub. Azərbaycanın hazırkı Prezidenti İlham Əliyev atasının yolunu davam etdirir.

İlham Heydəroviçlə bir neçə dəfə görüşdük. O, atasının siyasətinin parlaq davamçısı, möhkəm siyasətçidir. Bunun bir nümunəsi odur ki, biz burada, Rusiyada neft şirkətini dövlətin mülkiyyətində saxlaya bilmədik. Qazaxstanda da, digərlərində də bunu edə bilmədilər. Amma Azərbaycanda bu işə yaradı. Biz Bakıda inanılmaz inkişafdan və ya Azərbaycan paytaxtında tikilən binalardan danışanda başa düşürük ki, yalnız dövlət bunu ödəyə bilər. Biz də bu təcrübədən istifadə edirik. Görüşlər zamanı biz İlham Heydəroviçlə çox şeylər danışırıq. Təbii ki, o, atasını sevir, onun ayrılıq sözlərini xatırlayır və həyata keçirir. Azərbaycan, mən əminəm ki, uğur qazanacaq", - Leonid Kalaşnikov bildirib.

Dövlət Dumasında Heydər Əliyevə həsr olunmuş sərgini unikal adlandırmaq olar. Nadir fotoşəkillər, sertifikatlar, portretlər, xatirə əşyaları və hətta BAM-ın açarı burada toplanıb- böyük bir insanın hekayəsini, əbədi davam edən bir böyük həyat yolunun hekayəsini birləşdirən bütün fraqmentlər.

**Tatyana Novikova,**
**Nina Terexova**
**Tərcümə- Elçin Bayramlı**

FOTO REPORTAJ












# Ermənistan və molla rejimi dünyanı terrorla təhdid edir



*Dünya tarixində amansız terror fəaliyyətləri ilə seçilən dəstələr, qruplar çox olub. Onların qanlı cinayətləri nəticəsində yüzlərlə, minlərlə insan həyatlarını itirib, sağlamlıqlarından olublar. Faktlar sübut edir ki, terrordan ən çox əziyyət çəkən Azərbaycan xalqı olub. Təkcə iki əsr ərzində erməni terror təşkilatları tərəfindən iki milyondan çox insan terrorun qurbanı olub, yüz minlərlə azərbaycanlı şikəst olub, sağlamlığından məhrum edilib, on minlərlə ev dağıdılıb, qəsəbələr, şəhərlər yerlə yeksan olunub. Azərbaycan müstəqillik qazandıqdan sonra erməni terror təşkilatları və onlara siyasi hərbi dəstək göstərənlər fəaliyyətlərini daha da genişləndirmişlər. Nəticədə aşağıda qeyd edəcəyimiz, faciələr, fəlakətlər yaşanıb.*








Belə ki, 16 sentyabr 1989-cu il. ”Tbilisi-Bakı” marşrutu ilə hərəkət edən sərnişin avtobusu partladılmış, 5 nəfər həlak olmuş, 25 nəfər yaralanmışdır. 18 fevral 1990-cı il. Yevlax-Laçın yolunun 105-ci km-də ”Şuşa-Bakı” marşrutu ilə hərəkət edən avtobus partladılmış, çoxlu insan tələfatı olmuşdur.

11 iyul 1990-cı il. ”Tərtər-Kəlbəcər” sərnişin avtobusu partladılmış, dinc əhali olan maşın karvanına qarşı terror aksiyası keçirilmiş, nəticədə 14 nəfər qətlə yetirilmiş, 35 nəfər yaralanmışdır.

10 avqust 1990-cı il. ”Tbilisi-Ağdam” marşrutu ilə hərəkət edən sərnişin avtobusu partladılmış, 20 nəfər həlak olmuş, 30 nəfər yaralanmışdır. Cinayətin təşkilatçıları A.Avanesyan və M.Tatevosyan cinayət məsuliyyətinə cəlb olunmuşlar. Həmin gün ”Şəmkir-Gəncə” avtomobil yolunda Xanlar rayonunun Nadel kəndi yaxınlığında ”LAZ” markalı 43-80 AQF dövlət nömrə nişanlı avtobus partladılmış, nəticədə 17 nəfər həlak olmuş, 26 nəfər yaralanmışdır.

30 noyabr 1990-cı il. Xankəndi aeroportu yaxınlığında sərnişin avtobusu partladılmış, 2 nəfər həlak olmuş, 11 nəfər yaralanmışdır.

9 yanvar 1991-ci il. ”Molodyoj Azerbaycana” qəzetinin müxbiri Salatın Əsgərova və 3 hərbi qulluqçunun olduğu avtomobilə qarşı terror aktı nəticəsində 4 nəfər qətlə yetirilmişdir. Terrorçu qrupun üzvləri A.Mkrtçyan, Q.Petrosyan, A.Manqasaryan və Q.Arustamyan cinayət məsuliyyətinə cəlb olunmuşlar.

30 may 1991-ci il. Rusiya Federasiyası Dağıstan Respublikasının Xasavyurd stansiyası yaxınlığında ”Moskva-Bakı” sərnişin qatarı partladılmış, nəticədə 11 nəfər həlak olmuş, 22 nəfər yaralanmışdır.

## Dünyada erməni terrorundan ən çox əziyyət çəkən dövlət Azərbaycandır

19 iyun 1991-ci il. ”Yevlax-Laçın” avtomobil yolunun 106-cı kilometrində 5459 saylı hərbi hissəyə məxsus ”UAZ-469” markalı avtomaşın partladılmış, 3 nəfər həlak olmuş, 3 nəfər ağır yaralanmışdır.

31 iyul 1991-ci il. Dağıstan Respublikasının Temirtau stansiyası yaxınlığında ”Moskva-Bakı” sərnişin qatarı partladılmış, nəticədə 16 nəfər həlak olmuş, 20 nəfər yaralanmışdır.

2 avqust 1991-ci il. Hadrut rayonunun Dolanlar kəndində ”QAZ-53” markalı avtomaşın partladılmış, nəticədə 4 nəfər həlak olmuş, 8 nəfər yaralanmışdır.

21 avqust 1991-ci il. Hadrut rayonunun Şadaxt kəndi yaxınlığında ”KAVZ” markalı 70-30 AQO dövlət nömrə nişanlı avtobus partladılmış, nəticədə 2 nəfər həlak olmuş, 10 nəfər ağır bədən xəsarəti almışdır.

8 sentyabr 1991-ci il. ”Ağdam-Xocavənd” avtobusunun atəşə tutulması nəticəsində 5 nəfər qətlə yetirilmiş, 34 nəfər müxtəlif dərəcəli xəsarət almışdır. Terrorun Xaçaturyan Volodi, Yeremyan Saro, Çalyan Saşa, Arustamyan Armo tərəfindən törədildiyi sübuta yetirilmişdir. Həmin gün ”Ağdam-Qaradağlı” marşrutu ilə işləyən avtobus erməni quldurları tərəfindən atəşə tutulmuş, 8 nəfər həlak olmuş, 42 nəfər müxtəlif dərəcədə xəsarət almışdır.

26 sentyabr 1991-ci il. ”Yevlax-Laçın” yolunda ”VAZ-2106” markalı D 72-07 AQ nömrə nişanlı avtomaşın partladılmış, nəticədə 2 nəfər həlak olmuş, 14 nəfər yaralanmışdır.

19 oktyabr 1991-ci il. Ağdərə rayonunun Sırxavənd kəndi yaxınlığında ”UAZ-469” markalı avtomaşın partladılmış, nəticədə 3 nəfər həlak olmuş, 2 nəfər ağır yaralanmışdır.

20 noyabr 1991-ci il. Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında ”Mİ-8” vertolyotunun atəşə tutulması nəticəsində vertolyot heyəti və sərnişinlər - Azərbaycanın görkəmli dövlət və hökumət nümayəndələri, Rusiya və Qazaxıstandan olan müşahidəçilər - 19 nəfər həlak olmuşdur.

26 dekabr 1991-ci il. Şuşa-Laçın yolunun 4-cü kilometrliyində ”ZİL-130” və ”Moskviç” maşınları partladılmış, 5 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

8 yanvar 1992-ci il. Türkmənistandan ”Krasnovodsk-Bakı” marşrutu ilə hərəkət edən dəniz bərəsində törədilən terror aktı nəticəsində 25 nəfər həlak olmuş, 88 nəfər yaralanmışdır.

28 yanvar 1992-ci il. ”Ağdam-Şuşa” marşrutu ilə uçan Mİ-8 mülki vertolyotu Şuşa şəhəri yaxınlığında erməni terrorçuları tərəfindən vurulmuşdur. Nəticədə çoxu qadın və uşaq olan 44 nəfər həlak olmuşdur.

1992-ci ilin yanvar ayında erməni terrorçu dəstələri Kərkicahan qəsəbəsində 80 nəfər, 1992-ci ilin fevral ayında Xocavənd rayonunun Qaradağlı kəndində 77 nəfər və 26 fevral 1992-ci il tarixdə Xocalı şəhərində 613 nəfər dinc sakini qətlə yetirmiş, 650 nəfəri isə yaralamışlar.

22 mart 1992-ci il. ”UAZ 469” markalı 60-25 AZU dövlət nişanlı avtomaşın Qazax rayonu ərazisində partladılmış, nəticədə 3 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

28 mart 1992-ci il. ”Kamaz-5410” markalı 40-53 AQŞ dövlət nişanlı avtomaşın partladılmış, nəticədə 3 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

18 aprel 1992-ci il. ”Qazax-Cəfərli” yolunun 10-cu kilometrliyində ”Vaz” markalı maşın silahlı basqına məruz qalmış, nəticədə 2 nəfər ölümcül yaralanmışdır.

20 may 1992-ci il. Zəngilan rayonunun Qarançı kəndi yaxınlığında ”UAZ-469” markalı 80-33 AQD dövlət nömrə nişanlı avtomaşın silahlı basqına məruz qalmış, nəticədə 2 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

1 fevral 1994-cü il. Bakı dəmir yolu vağzalında ”Kislovodsk-Bakı” sərnişin qatarında terror aktı törədilmiş, 3 nəfər həlak olmuş, 20 nəfər yaralanmışdır.

19 mart 1994-cü il. Bakı metropolitenin ”20 Yanvar” stansiyasında törədilmiş partlayış nəticəsində 14 nəfər həlak olmuş, 49 nəfər yaralanmışdır. Məhkəmə sübut etmişdir ki, terror aksiyası Ermənistan xüsusi xidmət orqanları tərəfindən hazırlanmış, separatçı ”Sadval” ləzgi təşkilatının üzvləri tərəfindən həyata keçirilmişdir. ”20 Yanvar” metro stansiyasında partlayışın törədilməsində ittiham olunan və Ermənistanda xüsusi terror-təxribat hazırlığı keçmiş 30 sadvalçı cinayət məsuliyyətinə cəlb edilmişdir.

13 aprel 1994-cü il. Dağıstan Respublikasının ”Daqestanskiye Oqni” stansiyası yaxınlğında ”Moskva-Bakı” sərnişin qatarı partladılmış, 6 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır.

3 iyul 1994-cü il. Bakı metropolitenin ”28 May” və ”Gənclik” stansiyaları arasında elektrik qatarındakı partlayış nəticəsində 13 nəfər həlak olmuş, 42 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdır. Terror aksiyası Azərbaycan Respublikasının vətəndaşı, Qarabağ uğrunda gedən döyüşlər zamanı - 13 yanvar 1994-cü ildə əsir düşmüş və Ermənistan xüsusi xidmət orqanları tərəfindən məxfi əməkdaşlığa cəlb edilmiş Aslanov Azər Salman oğlu tərəfindən törədilmişdir. İkili stadartlardan əl çəkməyən beynəlxalq təşkilatlar və aparıcı dövlətlər hələ də erməni terroruna qarşı heç bir təsirli tədbirlər görməyir.

Hətta BMT Təhlükəsizlik Şurası Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarını qeyri-şərtsiz boşaltması barədə 4 qətnamə qəbul etsədə qətnamənin icrası kağız üzərində qalmışdır. Elə ki, Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarını azad etməyə başladı bəzi ikiüzlü siyasət yeridən, ermənipərəst dairələrin qazanından bəhrələnən dövlətlər hay-küy qaldırmağa cəhdlər göstərdilər. Lakin Azərbaycan öz yolundan, torpaqlarını azad etmək məqsədindən dönmədi, nəhayətdə ərazi bütövlüyümüz bərpa edildi. Hazırda işğaldan azad edilən torpaqlarda dostları sevindirib, düşmənin bağrını çatladan geniş quruculuq abadlıq işləri həyata keçirilir. Keçmiş qaçqın və məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı istiqamətində əhəmiyyətli layihələr icra olunur. Cocuq Mərcanlıdan başlayan Böyük Qayıdışın təməli artıq bütün Qarabağımızı əhatə etməkdədir.

Ardı Səh. 7

# Ermənistan və molla rejimi dünyanı terrorla təhdid edir




Əvvəli-Səh-6

### Molla rejimi dünya üçün təhlükə yaradır

Ermənistanla yanaşı, qonşuluğumuzda fəaliyyət göstərən molla rejimi də Azərbaycana qarşı təxribatlar törədir. Daha doğrusu, erməni-daşnak terrorçu birləşmələri ilə həmrəylik nümayiş etdirən molla rejimi Azərbaycanın suvern ərazilərində terror aktları həyata keçirir, təxribatlara cəhdlər göstərir. Ümumiyyətlə, mövcud fakt ondan ibarətdir ki, müxtəlif vaxtlarda molla rejiminin Bakıdakı əlaltıları və xaricdəki terrorçu dəstələri Azərbaycan dövlətinə və xalqına yönələn təxribatlar həyata keçirib. Azərbaycan ərazilərinin işğalı zamanı molla rejimi erməni - daşnak qüvvələri ilə birlikdə talançılıq həyata keçirib, xalqımıza məxsus maddi mədəniyyət nümunələrinin dağıdılmasında yaxından iştirak edib. Yəni, işğal dövründə molla rejimi bütün imkanları ilə ermənilərin yanında olub. Hətta torpaqlarımızın işğal edilməsində daşnaklarla birlikdə iştirak edib. Bunu terrorçu erməni təşkilatının üzvləri də etiraf edirlər. Terror təşkilatının keçmiş üzvü Martiros Jamkoçyan Ermənistan KİV-inə etirafında bildirib ki, "ASALA"-nın rəhbərlərindən biri olan beynəlxalq terrorçu Monte Melkonyan Azərbaycan torpaqlarının işğalı zamanı molla rejimin xüsusi xidmət orqanlarının əməkdaşları ilə görüşüb: "1993-cü il avqustun 31-də işğal edilən Qubadlının zəbt olunmasından əvvəl farslar Monteyə zəng ediblər. İranın xüsusi xidmət orqanlarının nümayəndələri Melkonyanla görüşmək üçün Gorusa gəliblər. Keçmiş terrorçu deyib ki, farslar əməliyyatın hazırlığından xəbərdar idilər. Həmin vaxt İran tərəfinin marağı müharibənin nəyin bahasına olursa-olsun, Arazın o tayına keçməməsi idi. Ona görə də onlar bizimlə hesablaşıb, əməkdaşlıq edirdilər".

### Molla rejimi erməni vəhşiliyinə ortaqdır

Tarixi faktlara istinad etsək məlum olar ki, indiki molla rejimi 1090-cı ildə Həsən ibn Səbbah tərəfindən qurulan "Xaşxaşilər"in davamçılarıdır. "Xaşxaşilər" çalışırdılar ki, ətrafda səs-küy yaradan vəhşiliklər, qətliamlar törətsinlər, eyni ilə indiki molla rejimi də böyük ajiotaj yaradan terror aktları həyata keçirirlər. Molla rejimi qanlı terror əməlləri ilə dövlətlərdə və xalqlarda qorxu yaratmağa çalışırlar. Öz xalqı acından ölür, insanlar dilənçi kökündə yaşayır, kənd və qəsəbələr, iri şəhərlər bataqlıq içində inildəyir insanları öldürmək, şəhərlərə fəlakətlər yaşatmaq üçün on milyardlarla dollar terror aktlarının həyata keçirilməsinə pullar xərcləyir. Molla rejimi "HƏMAS"ı, "Hizbullah"ı və Əl-Qaidəni silahlandırır. Hər il bu terrorçu təşkilatların ayaqda qalması üçün 16 milyard dollar vəsait xərcləyir. Məlumatlara istinadən qeyd etmək olar ki, xərcləri bölgüsü aşağıdakı kimidir:

- Suriyada Əsəd rejiminə ödənilən məbləğ 4,7 milyard dollar
- Livanda "Hizbullah" üçün illik ödənilən məbləğ 700 milyon dollar
- Yəməndə Husilərə ödənilən məbləğ ildə 100 milyon dollar
- İraqda "Şiə keşikçiləri" adlı təşkilata ödənilən məbləğ 100 milyon dollar və sair

Amerika Birləşmiş Ştatlarının 2019-cu ildə tərtib edilən "Terrorla bağlı Ölkələr Hesabatı"nda (Country Reports on Terrorism) bütöv bir fəsil Molla rejiminin terrorçu dövlət olaraq törətdiyi vəhşiliklərə, terrorçu təşkilatları silahlandırmasına, maliyyələşdirməsinə həsr edilib. Hesabatda qeyd edilir ki, 1979-cu ildə "İslamçıların" hakimiyyətə gəlişindən sonra, molla rejimi dünyanın 20-dən çox ölkəsində sui-qəsdlər və ya terror aktları təşkil edilib. Bu aktlar Avropa, Şimali və Cənubi Amerika, Afrika və Asiya daxil olmaqla, dünyanın 5 qitəsində həyata keçirilib.1980-ci ildə Livanda Molla rejiminin dəstəklədiyi və sifarişlər verdiyi "Hizbullah" tərəfindən 14 nəfər amerikalı daxil olmaqla, çoxsaylı Qərb mütəxəssisləri girov götürülüb. Girovlar 1980-ci illərin ortalarında "İran-Kontra mövzusu" üzrə aparılan məxfi danışıqlarda İranın mövqeyini gücləndirmək üçün vasitə kimi istifadə ediliblər.18 aprel 1983-cü ildə ABŞ-ın Beyrutdakı səfirliyinə kamikadze hücumu təşkil edilib. Yük maşınından istifadə etməklə törədilən partlayışlar nəticəsində 17 nəfər amerikalı daxil olmaqla, 63 nəfərin həyatına son qoyulub. 1983-cü ilin oktyabrın 5-də Beyrutun hava limanında törədilmiş partlayış nəticəsində Livanda sülhməramlı qüvvələr kimi yerləşdirilmiş, müxtəlif millətlərə məxsus 241 nəfər dəniz piyadası öldürülüb.1985-ci ilin iyun ayında "Hizbullah" qruplaşmasının üzvləri İranın maddi-texniki dəstəyindən faydalanaraq, Afinadan (Yunanıstan) TWA 847 saylı reys üzrə uçan təyyarənin bort heyətini qaçırıb qətlə yetiriblər. 1985-ci ilin dekabrında, həmçinin, 1986-cı ilin sentyabrında isə Parisdə partlayışlar həyata keçiriblər. Bu teraktlar üçün logistik dəstəyi İranın dövlət strukturları göstəriblər. Nəticədə, 12 nəfər ölüb, 200 nəfərə yaxın şəxs yaralanıb.

Görünən odur ki, molla rejiminin terror maşını dayanmaq bilmir. Hər gün müxtəlif bölgələrdə terror aktları törədilir və insanlar həlak olur. Dünya birliyi isə susur. Hələ də nəyisə gözləyir. Təcili və təsirli tədbirlər görüb, dünya üçün təhlükə mənbəyi olan molla rejimi cəzalandırılmalıdır. Nə qədər kecikmə olsa, bir o qədər insan tələfatları, insan əziyyətləri olacaq. Azərbaycanda molla rejimi dəfələrlə terror aktları həyata keçirib və bu zaman insanlar həlak olublar. Dünyaşöhrətli akademik Ziya Bünyadov molla rejiminin terror maşınının qurbanı oldu, az keçmədi ki, jurnalist, yazıçı Rafiq Tağı qətlə yetirildi. Eyni zamanda, Bakıda keçirilən "Avroviziya" mahnı müsabiqəsi zamanı molla rejimi terror aktı törətməyə cəhdlər göstərdi, xoşbəxtlikdən Azərbaycanın hüquq-mühafizə orqanları fəlakətin qarşısını ala bildilər. "SEPAH"-ın əməkdaşı Yasin Hüseynzadə adlı Tehran vətəndaşı Azərbaycan səfirliyinə hücum edərək, mühafizə xidmətinin rəisini qətlə yetirdi, iki nəfəri yaraladı. Terror aktına görə molla rejimi Azərbaycan xalqından üzr istəməkdənsə, həyasızcasına hadisəyə öz terrorçu düşüncələrinə xas münasibət bildirməyə cəhd etdilər. Tehranın polis rəisi Hüseyn Rəhimi yalandan bildirib ki, guya hadisəni törədən şəxs səfirliyə iki uşağı ilə gəlib, hücum ailə-məişət zəminində baş verib. Lakin kamera görüntüləri onun yalanını ifşa edib. Görüntülərdən aydın olur ki, həmin şəxs səfirliyin qarşısına tək gəlib, maşından düşüb, əlində silah səfirliyin binasına daxil olub, atəş açmağa başlayıb. Kamera görüntüləri təsdiq edir ki, terrorçu öz ağaları ilə hadisəni razılaşdırıb. Çünki səfirliyə hücum edərkən terrorçu qapının önündə dayanan paqon dostunu əli ilə salamlayır. Polis istəsəydi, anındaca terrorçunu zərərsizləşdirə bilərdi, lakin buna cəhd etmədi. Şübhəsiz ki, Azərbaycan səfirliyinin əməkdaşı SEPAH zabiti olan terrorçunu zərərsizləşdirməsəydi, faciənin miqyası daha böyük ola bilərdi. Görünən ondan ibarətdir ki, molla rejimi öz terrorçu xislətindən və Azərbaycan vətəndaşlarına qarşı təxribatçı əməllərindən əl çəkmir. "Kalaşnikov" avtomatı ilə silahlanmış terrorçunun Milli Məclisinin deputatı Fazil Mustafaya qarşı terror aktını törətməsinin arxasında molla rejiminin dünyamiqyaslı cinayətkar dəstəsinin dayandığı şübhəsizdir. "SEPAH"-ın və molla rejiminin digər hüquq-mühafizə orqanlarının qanlı terror aktı ilə bağlı ziddiyyətli, həm də deputatı "qatı şiə", "anti-İran" adlandırması da F.Mustafaya qarşı törədilən terrorun arxasında molla rejiminin dayandığını göstərir. Milli Məclisin deputatı Fazil Mustafa baş verən hadisə ilə bağlı mətbuata açıqlamasında bildirib ki, onun düşməni yoxdur və ilkin versiya kimi ona sui-qəsd edilməsində molla rejiminin əli var. Fazil Mustafa mətbuatda, eləcə də Milli Məclisin iclaslarında molla rejiminə qarşı tənqidlər səsləndirən deputatlardan biri olub. Məhz bu da terrorçu dövlət olan molla rejiminin başbilənlərini hiddətləndirib və deputatı zərərsizləşdirmək, həm də digər insanlarda qorxu və vahimə yaratmaq üçün qanlı cinayətin törədilməsi sifarişını veriblər. Artıq Fazil Mustafaya terror aktı törədənlər həbs olunublar. Yəqin ki, istintaq terroru törədənlərin kimdən və necə sifariş aldıqlarını üzə çıxaracaqlar.

Bir sözlə, məlum olan gerçəklik ondan ibarətdir ki, erməni terror təşkilatları və molla rejimi nəinki Azərbaycan üçün, ümumilikdə dünyaya təhlükə mənbəyidir. Bu təhlükənin aradan qaldırılması, dünya xalqlarının sülh və əmin-amanlıq şəraitində yaşayışının təmin olunması üçün beynəlxalq aləmin ümumi düşmənə qarşı birlik və bərabərlik nümayiş etdirməlidir. Əks halda, dünya dinclikdən uzaq olacaq.

**İ.ƏLİYEV**

# "Makronu da Sarkozinin aqibəti gözləyir"

"Fransanın keçmiş prezidenti Nikola Sarkozinin həbs edilməsi bu ölkənin bəzi rəhbərlərinin vəzifədə olduqları illərdə çirkin əməllərlə məşğul olduqlarını bir daha aydın göstərir. Əksər dövlət rəhbərləri, eləcə də Sarkozi prezidentliyi müddətində daimi erməni-pərəst mövqeyi ilə fərqlənmiş, Azərbaycanın haqlı tələblərinə laqeyd yanaşmış, antidemokratikliyini nümayiş etdirmişdir. Emmanuel Makron da bu gün demokratiya pərdəsi altında öz çirkin əməllərini həyata keçirməkdədir. Fransa Minsk qrupunun həmsədri olduğu bütün illərdə ədalətsizliyə meydan açmış, təcavüzkar Ermənistanın yanında olduğunu göstərmiş, faşistlərə heç bir təsir göstərilməmişdir." Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.



Komitə sədri qeyd edib ki, bu mövqe 44 günlük müharibə günlərində və bu gün də davam etdirilir. "Makron, Fransa parlamenti, bu ölkənin əksər siyasətçiləri bu gün ermənilərin əlində bir oyuncağa çevrilmişdir. Bu sözsüz ki, ermənilərə sevgidən deyil, onların pullarına istəkdən qaynaqlanır. Digər tərəfdən Fransa Cənubi Qafqazda öz varlığını möhkəmləndirmək arzusundadır. Bu əlbəttə ki, mümkün deyil və Ermənistanla danışıqlarda Azərbaycan Fransanın iştirakına nöqtə qoymuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dəfələrlə Makronun anti-Azərbaycan mövqeyini tənqid etmiş və bu ölkənin vasitəçiliyinə heç bir lüzum olmadığını bildirmişdir.

Makron bu gün Azərbaycana düşmən münasibəti ilə Sarkozidən çox irəli getmişdir və beynəlxalq aləmdə Ermənistanın vəkili qismində çıxış etməkdədir. O, bu günlərdə jurnalistlərə verdiyi açıqlamasında da bildirmişdir ki, "Fransa Minsk Qrupunun həmsədri kimi Azərbaycan–Ermənistan arasında sülhə maraqlıdır. Biz sülh prosesinə kömək etməliyik. Beynəlxalq səviyyədə tanınan sərhədlərə tam hörmət olunmalıdır". Gülməli məntiqdir. Makron Azərbaycan torpaqları işğal altında olduğu 30 ildə nədən sərhədlərə hörmət məsələsini dilə gətirmirdi? Məgər o, Azərbaycanın ərazi bütövlüyünün pozulduğunu bilmirdimi? Belə açıqlamalar riyakarlıq əlamətidir. Təəssüflər olsun ki, Fransa prezidenti belə açıqlamalarının nifrət, gülüş doğurduğunu bilə-bilə ağlına gələni söyləyir və özünü çıxılmaz vəziyyətə salır. Görünür o, düşdüyü vəziyyətdən ləzzət alır. Əks halda belə ifadələri dilə gətirməzdi, əməllərindən utanıb geri çəkilərdi. Öz çirkin əməlləri ilə fransızların imicinə, dövlətin mənafeyinə ciddi zərbələr vuran Makronu da Sarkozinin aqibəti gözləyir və həmin gün heç də uzaqda deyil. Haqsızlıq, zülm, riyakarlıq cavabsız qalmır və Fransanın hakim dairələri də bunu yaxşı bilməlidirlər", deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# Brüssel görüşünün PƏRDƏARXASI



***Qərb Brüssel görüşünü Vaşinqtonda təşkil olunan dördgünlük görüşlərin davamı olaraq qiymətləndirməyə çalışır. Hətta ABŞ administrasiyası Brüssel görüşünü özünün diplomatik qüdrət göstəricisi belə hesab etdiyini də bəyan edə bilər və qeyd edək ki, bu, gözləniləndir. Çünki Vaşinqtonda başlanan prosesin Brüsseldə gücləndirilməsi ABŞ-ın maraqları daxilindədir və Ağ Ev bu görüşü də özünün diplomatik uğurları siyahısına salmaq niyyətində görünür.***

TƏHLİL

Doğrudur, istər XİN rəhbərlərinin Vaşinqton görüşünü, istər Brüssel görüşünü, istərsə də Kişinyovda keçiriləcəyi gözlənilən görüşləri Qərbin müsbət təşəbbüsü, yaxud təşəbbüslərinin müsbət nəticəsi kimi qiymətləndirmək olar. Çünki bununla hazırki dövrə qədər Cənubi Qafqazı özünün istənilən zaman istifadə edə biləcəyi "bağ" hesab edən və hadisələrin gedişində heç də "tələsməyən" Rusiyaya siyasət meydanında tək olmadığı mesajı verilir və daha çevik reaksiya verməsinə sövq edilir. Son zamanlar baş verən proseslər, ələlxüsus, bir-birinin ardınca keçirilən görüşlərlə Rusiyaya bildirilir ki, bu məsələnin müzakirəsində maraqlı olan ABŞ, Avropa İttifaqı, o cümlədən Türkiyə kimi söz sahibi olan dövlətlər var, hansı ki, onlarla da hesablaşmaq gərəkir və məsələ uzadılmalı yox, ciddi addımlar atılmalıdır, əks halda, ruslar proseslərdən kənarda qala bilərlər. Eyni zamanda, nəzərə alsaq ki, bizim Avropa ilə sıx ticarət tərəfdaşlığımız, həmçinin ABŞ ilə təhlükəsizlik sahəsində əməkdaşlıq əlaqələrimiz var, deməli, həm Vaşinqtonun, həm Brüsselin bölgədə sülhün, əməkdaşlığın tərəfdarı olması tam məntiqidir və qardaş ölkə olan Türkiyənin də bu məsələdə mövqeyi bəllidir. Yəni, mesaj ondan ibartədir ki, belə bir məqamda Rusiyanın əvvəlki kimi müşahidəçi mövqeyi onun özünə sərf etməz, çünki istər Vaşinqtonun, istərsə də Brüsselin aktiv şəkildə sülh məsələlərinə töhfə verməsi Moskvanın rolunu, bölgədə mövqeyini heçə endirir, hansı ki, bu mesaj danışıqların intensivləşdirilməsinə, məsələnin həllində onların daha aktiv fəaliyyətə başlamasına müsbət təsir etməyə bilməz. Məhz bu baxımdan da keçirilən görüşlər Qərbin müsbət təşəbbüsü, eləcə də müsbət nəticə kimi qiymətləndirilir.

Brüssel görüşünü Rusiya ilə rəqabətdə üstün gediş olaraq təqdim etməyə və Vaşinqtonda təşkil olunan dördgünlük görüşlərin davamı olaraq qiymətləndirməyə çalışan Qərb, hər zaman ermənipərəstliyi ilə seçilən və bu səbəbdən də danışıqlarda kənarda qalan Fransa ilə özünü bir müstəvidə görmək istəmir. Buna görə də Brüssel görüşünü öz diplomatiyasının davamı kimi göstərmək niyyətindədir və burada rəsmi Parisi görmək belə qəbuldilməz sayılır. Vaşinqtondan sonra, Moskva və Kişinyovdan öncə Brüssel görüşünün keçirilməsi, təkcə Rusiya deyil, həmçinin, Fransanın da önə çıxmaq cəhdlərinə qarşı təcili gedişdir. Bu, əslində, Azərbaycan üçün olduqca əhəmiyyətli olduğu halda, Paşinyanın bu görüşdən son ana qədər yayınmaq istəyi də təəccüb doğurmur, çünki ermənilərin bacıları olan fransızların danışıqlardan kənarlaşdırılması fonunda Qərbin öz daxilində toqquşması ermənilərin heç ürəyincə deyil. Fransa da vəziyyətin nə yerdə olduğunun fərqindədir və bu formatı mənimsəməyə çalışan rəsmi Paris nəticə əldə edə bilmədiyi üçün özünün təşəbbüskarı ola biləcəyi yeni bir format yaratmaq arzusundadır və Kişinyovda görüş planlaşdırılması bu mənada təsadüfi sayılmır, elə hesab edilir ki, bundan qaynaqlanılır.

Sözsüz ki, tərəflərin də, yəni həm Azərbaycan tərəfinin, həm də Ermənistan tərəfinin bu görüşlərlə bağlı öz maraqları var. Rəsmi Bakı sülh müqaviləsinin ən tez zamanda reallaşmasında, sərhədlərimizin, ərazi bütövlüyümüzün İrəvan tərəfindən tanınmasında, bölgədə təhlükəsizliyin, sülhün daha da üstün şəkildə təmin olunmasında, möhkəmlənməsində maraqlı olduğu halda, Ermənistan tərəfi sərhəd xəttindəki təxribatlarla görüşlərdən yayınmağa çalışır, məsələni uzatmaq niyyəti güdür və axmaqcasına nəyə isə ümid edir. Məsələn, Türkiyədə seçkilərin nəticələrini gözləyən, hətta seçkilərdən sonra vəziyyətin dəyişəcəyini arzulayan ermənilər ümid edilər ki, Azərbaycan-Türkiyə dostluq-qardaşlıq bağları qırılacaq və bundan sonra ağıllarına gələni edə biləcəklər. Düzdür, özlərini aldadırlar və xəyalları onları daha böyük uçuruma aparır və görünür, bunu başa düşməkdə çətinlik çəkirlər. Başa düşməkdə çətinlik çəkirlər ki, əvvəla bu qardaşlıq bağları qırılan deyil, buna ümid etmək axmaqlıqdır. Digər tərəfdən də, Azərbaycan 44 günlük savaş zamanı Türkiyənin mənəvi dəstəyini alsa da, işğalçıları torpaqlarından öz gücü ilə qovdu və bu əzm, bu siyasi iradə indi əvvəlkindən daha artıqdır və xəyalları çox mənasız və gülüncdür. Daha dəqiq desək, belə xam xəyallara düşən İrəvan diplomatiyadan yan keçməklə, görüşlərdən yayınmaqla, məsələni uzatmaqla öz aqibətini çətinləşdirir. İstər Paşinyan, istərsə də onun himayədarları Azərbaycan ordusunun gücündən xəbərdardır və bu dəfə edə biləcəkləri səhvlərin müqabilində başlarına gələcək müsibətin miqyasını təsəvvür etsələr özlərini günü-gündən çətinə salmazlar. "Əgər Ermənistan sülh istəmirsə, sülh olmayacaq", deyə cənab Prezident İlham Əliyevin Şuşada keçirilən beynəlxalq konfransda bəyan etməsi əslində bir sərt mesaj idi, sözsüz ki, bunu başa düşənlər, dərk edənlər, hələ də özlərini aldatdıqlarının fərqində olanlar üçün.

Onu da bilirik ki, sülh, əslində. Ermənistanın xeyrinə olsa da. Paşinyan özü təkbaşına qərar verməyə qorxur və bu da səbəbsiz deyil. Ordusunda "5-ci kolon"un olduğunu deyən erməni baş nazir bununla ölkəsində Rusiyanın təsir imkanlarına işarət edir. Yəni, başda elə baş nazir Nikol olmaqla, hər bir erməni Rusiyanın təsirlərindən, təzyiqlərində bərk qorxur və ehtiyat edir. İstər Ermənistan hakimiyyəti olsun, istərsə də bu ölkənin müxalifəti, hər biri ayrı-ayrılıqda başa düşür ki, rusların müdaxiləsi həmin ölkə üçün böyük fəlakətlər vəd edir. Onsuz da Paşinyanın hakimiyyət komandasının Qərb istiqamətində meyil etməsinə görə Ermənistan Rusiya tərəfindən cəzalandırılır. Əvvəla, Vaşinqton görüşünə görə Rusiyanın Ermənistana təzyiqləri artıq göz önündədir. Rusiyanın 1-4 may aralığında Ermənistana qaz axınını dayandırması, "Metsamor" AES-i 75 günlük təmirə bağlaması, Ermənistandan Rusiyaya göndərilən kənd təsərrüfatı məhsullarının Gürcüstanda Yuxarı Lars yolundakı nəzarət-buraxılış məntəqəsində bir neçə gün saxlanılması ermənilərə verilən yüngülvari bir "qulaqburması" idi. Kremlin daha nələrlə erməniləri dalana dirəyə biləcəyini yaxşı başa düşən Nikol Paşinyanın Moskvanın ultimativ tələbi ilə dərhal Rusiyaya yollanması səbəbsiz deyildi və Vovayeviç özü əvvəlcədən bilirdi ki, ABŞ-da danışılanlar barədə orada məruzə etməli, hesabat verməli olacaq və bu belə də oldu. Digər tərəfdən də, axı rusların Ermənistanda hələ istifadə edilməyən siyasi rıçaqları daha çoxdur və müstəqilliyindən, suverenliyindən söhbət belə gedə bilməyən bir ölkənin nəinki baş nazirinin, hətta adi vətəndaşının belə hər birinin qorxmaqda haqqı var. Belə bir qorxunu yaşayan erməni baş nazir Moskvada cavab, hesabat verəcəyini başa düşdüyü üçün Vaşinqton danışıqları fonunda sərhəd xəttində gərginlik də yaratmaqla, Vaşinqton danışıqlarını erməni simasızlığı ilə şübhə altına saldı ki, rusların qarşısında özünü "təmizə çıxara" bilsin. Bir sözlə, Ermənistanın baş naziri quyruğunun qapı arasında qaldığını yaxşı bilir və görüşlərə də bütün bunları nəzərə alaraq gedir deyə, müstəqil şəkildə qərar verə bilmir. Bu baxımdan, Brüssel görüşü fonunda ciddi bir nəticə olacağını gözləmək hələ tezdir, amma bununla belə, bu görüş tərəflər arasında dialoqların, fikir mübadilələrinin davamlılığı baxımından olduqca əhəmiyyətlidir. Görüşdən sensasion nəticələr gözləmək olmasa da, Brüsseldəki danışıqların məntiqi davamı olaraq İrəvanın bir sıra addımlara təhrik ediləcəyi gözləniləndir. Onsuz da Azərbaycan tərəfindən fasiləsiz şoklara məruz qalan və Cənubi Qafqazdakı yeni reallıqların idarə edilməsində heç bir paya malik olmayan Ermənistan tərəfi başa düşməlidir ki, sülh prosesinin danışıqlar yolu ilə düzgün, ədalətli həllinə maneə yaradacağı təqdirdə, həmin ölkə gələcək şoklara da hazır olmalı olacaq.

***İnam Hacıyev***

## "Erməni təxribatlarının qarşısını almaq üçün ..."

"Mən ermənilərin xüsusən Zəngəzur və Kəlbəcər, Basarkeçər istiqamətində aktivləşəcəyini öncədən açıqlamışdım. Ona görə Basarkeçər istiqamətində vəziyyəti ağırlaşdırmağa çalışacaqlar ki, orada bir hissəsi Azərbaycan tərəfdə olan Zod qızıl mədəni var. Mədənin Ermənistan tərəfində olan hissəsində demək olar ki, qızıl ehtiyatları tükənməkdədir. Rusiya şirkətinin hesablamalarına görə, bu ilin sonuna kimi oradakı qızıl ehtiyatı istismar olunub bitəcək". Bu sözləri SİA-ya açıqlamasında hərbi-siyasi ekspert Telman Qasımov deyib. Onun sözlərinə görə, 44 günlük müharibədə Azərbaycan o əraziləri geri aldıqdan sonra Ermənistanın iqtisadiyyatında da problemlər yaranıb: "Ermənistan yenidən Zod qızıl yatağının Azərbaycanda olan hissəsini geri qaytarmaq və birdəfəlik Rusiyanın tabeliliyinə vermək istəyirlər. Rusiya da bu məsələdə maraqlıdır. Zəngəzur istiqamətində də vəziyyəti ağırlaşdırıb beynəlxalq qüvvələri bu əraziyə cəlb etmək istəyirlər. Çünki Ermənistan artıq Rusiyaya bel bağlamır".

Ekspert sözlərinə davam edərək bildirib ki, xüsusilə Həkəri çayın üzərində körpünün qurulmasından sonra onlarda tamamilə ruh düşkünlüyü yaranıb və Rusiyaya qarşı inamlarını itiriblər: "Böyük vəchlə çalışırlar ki, istər Ermənistanda, istərsə də Qarabağda Rusiya sülhməramlılarını beynəlxalq qüvvələrlə əvəz etsinlər. Bütün bu hadisələrin fonunda Rusiya ilə Qərb arasında çəkişmə başlayıb. Kimin təsirinin daha güclü olduğunu isə zaman göstərəcək.



Ermənistan təxribatlarının da qarşısını almaq üçün yalnız vaxtında onların cavabını vermək lazımdır. Ordumuz hər zaman ayıq-sayıq olmalıdır. Onlara elə bir zərbə vurulmalıdır ki, bir daha bu cür əməllərə yanaşmasınlar".

***Ləman Əlizadə***

# "Prezidentin Şuşa səfəri ondan xəbər verir ki,..."

**"Cənab Prezidentin Şuşa səfəri zamanı nitqi həm Ulu Öndər Heydər Əliyevin, həm də Azərbaycan xalqının qarşısında sanki bir növ hesabat xarakterli idi". Bu sözləri SİA-ya açıqlamasında deputat Müşfiq Cəfərov deyib.**




Onun sözlərinə görə, ölkə başçısı cənab İlham Əliyev hər zaman görülən işlər barəsində xalqı mətbuat vasitəsilə məlumatlandırır: "Bu günə kimi Qarabağda görülən bütün işlər şəxsən dövlət başçısının nəzarəti altında xalqın gözü önündə baş tutur. Artıq Cənab prezidentin Qarabağa səfəri və ənənəvi çıxışı xalq tərəfindən gözlənilən və yeganə etibar edilən istinada çevrilib. Həm müharibə zamanı həmdə postmüharibə dövrü xalqın yeganə ümid yeri ölkə başçısının çıxışları olub. Bu gündə bu ənənə davam edir. Xüsusilə 10 may günü məhz Şuşadan xalqa müraciətin edilməsi ulu öndər Heydər Əliyevin arzusunun reallaşması yeni Şuşanın düşmən tapdağından azad olunmasıyla əlaqədar idi. Şuşa Azərbaycan xalqının qürurunun, məğrurluğunun rəmzidir".

Deputat sözlərinə belə davam edib: "Dövlət başçısı xalqa Şuşa müraciətində respublikamızın beynəlxalq miqyasda malik olduğu və dayanmadan artan nüfuzundan da söz açıb. Azərbaycan dövləti hər zaman alternativlərdən ən yaxşısını seçməyə, mümkün olan ən əlverişli yol xəritəsi cızmağa qadirdir. Respublikamız yaxın-uzaq ölkələrlə, beynəlxalq aktörlərlə, beynəlxalq qurum və quruluşlarla etibarlı münasibətlər qurub. Azərbaycan gücünü, imkanları, nüfuzu həm əhalinin sosial rifahına, sülhə və ədalətə sərf edir. Azərbaycan 30 ildə qazandığı bu uğuru bütün regionun inkişafına həsr edir. Beynəlxalq ictimaiyyətdə dövlətimizin bu fəaliyyətini yüksək qiymətləndirir".

***Ayşən Vəli***

# "2026-cı ildə hədəfimiz xarici turistlərin sayını 4 milyona çatdırmaqdır"



***"Bu ilin yanvar-aprel aylarında ölkəmizə 523 mindən çox xarici ziyarətçi gəlib. Bu da ötən illə müqayisədə 58 faiz artım deməkdir. Təkcə aprel ayında 154 mindən çox xarici vətəndaş ölkəmizə gəlib ki, bu ötən illə müqayisədə 83 faiz artım deməkdir". Bu sözləri SİA-ya açıqlamasında Dövlət Turizm Agentliyinin Media və ictimaiyyətlə əlaqələr sektorunun müdiri Gülnar Mustafayeva deyib.***

O, qeyd edib ki, görüldüyü kimi rəqəmlər müsbət tendensiyayla davam edir. Pandemiyadan sonraki bərpa prosesi sürətlə gedir: "2019-cu ilin rəqəmləriylə müqayisədə 60 faizin üzərində bərpa müşahidə olunur. Qarşıdan yay mövsümü gəlir. Yay mövsümü dünyada turizmin canlanması, turistik səfərlərin artması mövsümüdür. Ona görə biz yay mözsümündə bu rəqəmlərin daha çox artmasını gözləyirik. Ən çox xarici ziyarətçilər 4 ay ərzində Rusiya, Türkiyə, İran, Gürcüstan, Pakistan, Hindistan, BƏƏ, Qazaxıstan, Özbəkistan, Belarusiya kimi ölkələrdən üz tutublar."

Günel Mustafayeva bildirib ki, Dövlət Turizm Agentliyinin hədəf ölkələri sırasında Avropa ölkələrini- Almaniya, İsveçrə, Polşa, Avstriyanı, Yaxın Şərq ölkələrindən Səudiyyə Ərəbistan, İsrail, Qətər, Küveyt, Bəhreyni, Rusiya və MDB ölkələrindən Qazaxıstan, Özbəkistan, Belarusu, Asiya ölkələrindən Çin, Hindistan, Pakistanı, Uzaq Şərqdən isə Cənubi Koreya, Yaponiya, Malazya, Sinqapur, İndonezya kimi ölkələri misal göstərə bilərik: "Hədəf arealımız çox genişdir və məqsədimiz bu hədəf bölgələrdən ölkəmizə gələn xarici vətəndaşların sayını artırmaqdır. Bunun üçün Dövlət Turizm Agentliyi və tabeliyindəki Azərbaycan Turizm Bürosu tərəfindən genişmiqyaslı marketinq və kommunikasiya kompaniyaları aparılır. Beynəlxalq tədbirlərdə, sərgilərdə iştirak edilir, görüşlər və seminarlar təşkil olunur. "CNN", "BBC", "Euronews" kimi beynəxalq media orqanlarında turizm potensialımız haqqında məlumatlar paylaşılır və təbliğat kompaniyaları aparılır. Bütün bunlarla yanaşı birbaşa uçuşların artırılması, viza rejiminin sadələşdirilməsi, liberallaşdırılması istiqamətində də mütəmmadi olaraq müzakirələr aparılır, tövsiyyələr səsləndirilir.

Ölkədaxili turizmdə bərpa başa çatmışdır, gəlmə turizmində isə, bərpa prosesi bayaq da qeyd etdiyimiz kimi, davam edir. 2026-cı ilə görə qoyduğumuz hədəflər var, bununla bağlı mətbuatda xəbərlər, məlumatlar mövcuddur. 2026-cı ildə hədəfimiz daxili turistlərin sayını altı milyona , xarici turistlərin sayını isə dörd milyona çatdırmaqdır. Bütün bu proseslərdə, geniş planda məqsəd ümumi daxili məhsulda turizmin payını artırmaq, ölkəyə gələn turistlərin sayını artırmaqla turizm xərcləmələrinin və turizmin faydasını artırmaqdır".

***Fazil Hənifəyev***

QURUM RƏSMİSİ AÇIQLADI

# Qədim Əhmədov - zəhmətin və uğurun tərənnümü

***Əhmədov Qədim Şahvəli oğlu 1929-cu ildə İmişli rayonunun Mirili kəndində anadan olub, əmək faliyyətinə isə 1947-ci ildə İmişli rayon İcraiyyə Komitəsində başlayıb. 1948-1951-ci illərdə İmişli rayon Partiya Komitəsində təlimatçı, 1951-1953-cü illərdə İmişli RİK-də şöbə müdiri, 1953-1955-ci illərdə İmişli rayon Komsomol Komitəsinin 1-ci katibi, 1955-1956-cı illərdə İmişli rayon Partiya Komitəsinin Qaradonlu MTS üzrə katibi vəzifələrində çalışıb.***



Qədim Əhmədov bacarıqlı iş fəaliyyətinə görə Bakı Ali Partiya Məktəbinə təhkim edilib, eləcə də 1956-1960-cı illərdə Ali Partiya Məktəbində təhsil alıb. O, eyni zamanda 1960-cı ildə İmişli rayon Partiya Komitəsində təlimatçı işləyib. 1961-ci ildən 1965-ci ilin yanvar ayına kimi isə İmişli rayon Partiya Komitəsinin 2-ci katibi vəzifəsini daşıyıb.

Qədim Əhmədov növbəti ali təhsilini Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda alıb. Qədim Əhmədov kənd təsərrüfatı sahəsini çox gözəl bildiyi üçün, həm də bu sahə üzrə kurator olub. Onun dərin biliyi və təcrübəsi isə öz bəhrəsini verib. Belə ki, o dövrün iqtisadiyyatın inkişafına dair müasir metodologiyasının tətbiqində fərqlənən Qədim müəllim və kənd təsərrüfatı sahəsində heyvandarlıq komplekslərinin yaradılmasında, taxılçılıqda məhsuldarlığın yüksək rentabellik göstəricilərinin əldə edilməsində, pambıq məhsulunun əkilməsi və becərilməsi qaydalarını təmərküzləşdirilməsi ilə yüksək məhsuldarlıq əldə olunmasını təmin etməklə rayonun iqtisadiyyatına böyük töhfələrini verib.

Məhz bu uğurların əldə edilməsindən sonra - Qədim Əhmədovun bacarıqlı, bilikli, kənd təsərrüfatı sahəsindəki müvəffəqiyyətlərinə Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi tərəfindən böyük etimad göstərilərək, MK-nın Bürosu, onu keçmiş Qasım İsmayılov-indiki Goranboy rayon Komitəsinə I katib vəzifəsinə təyin edilməsi barədə Qərar vermişdi.

Qədim Əhmədovn 1965-ci ildən 1969-cu ilə kimi Qasım İsmayılov rayon Partiya Komitəsinin I katibi vəzifəsində çalışıb. Ulu Öndər Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə I katib vəzifəsinə təyin edildikdən sonra isə Qədim Əhmədovun bacarıqlı partiya və Sovet işçisi olması yüksək dəyərləndirilib və o, MK Bürosunun qərarı ilə Füzuli rayon Partiya Komitəsinə I katib təyin edilib. Beləliklə, Qədim müəllim 1969-cu ildən 1981-ci ilə kimi həmin vəzifəni yüksək səviyyədə icra edib.

Onu da xatırladaq ki, Qədim Əhmədov Azərbaycan Respublikasının Ali Sovetinin ard-arda 6, 7, 8, 9 və 10-cu çağırışın deputatı seçilib. Qədim Əhmədov sonrakı illərdə - 1981-ci ildən Azərbaycan Respublikası Meliorasiya və Su Təsərrüfatı Nazirliyində Kadrlar İdarəsinin rəisi vəzifəsində işləyib, 2008-ci ildən isə Fəxri Təqaüdə layiq görülüb.

O, bir sıra dövlət mükafatlarına da layiq görülüb. Belə ki, I katib vəzifəsində işləyərkən rayonda heyvandarlıq, üzümçülük, taxılçılıq, pambıqçılıq və digər sahələrdə olan iqtisadi göstəricilərin yüksək olması səbəbindən dövlət tərəfindən orden və medallarla təltif edilib.

Qədim Əhmədov Füzuli rayon Komitəsinin I katibi işlədiyi dövrdə Füzuli rayonunun Horadiz qəsəbəsində Araz çayı üzərində suvarma işləri üçün sudan istifadənin təmin edilməsi məqsədi ilə bənd qurulmuş, həmin bəndin qurulması ilə əhalinin və kənd təsərrüfatının su ilə təchizatı təmin edilməklə yanaşı, fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi mümkün olub. Həmçinin, Füzuli rayonunda ilk aeroportun tikilməsi ilə əhalinin Bakı şəhərinə uzaq məsafənin az vaxt ərzində qət edilməsi təmin edilib. Əhalinin işlə təmin edilməsi məqsədi ilə rayonda 4 Şərab zavodu və hər zavodun tərkibində 3 məntəqə tikilib istifadəyə verilib. Füzuli rayonunda yetişdirilmiş pambıq məhsulunun rayondan 100-120 km kənarda yerləşən digər rayonların pambıq təmizləmə zavodlarına daşınmasının çətinliyinin aradan qaldırılması məqsədi ilə Horadiz Pambıq Təmizləmə Zavodunun tikilməsi təmin edilmişdir. Onun işlədiyi dövrdə Horadiz Taxıl Məhsulları Kombinatının tikilməsi ilə əhalinin un, düyü və fərdi insanların heyvanlarının qarışıq yem ilə təmin edilməsi üçün yem zavodu inşa edilib. Haramı düzü sahəsinin və ətraf kəndlərdə yaşayan əhalinin su ilə təmin edilməsi məqsədi ilə Köndələn çayı üzərində su anbarının tikilməsi ilə yanaşı, çoxlu sayda artezian quyularının qazılıb istifadəyə verilməsi əhalinin və kənd təsərrüfatının suya olan tələbatı təmin edilib.

Bundan başqa, rayonda rayonlararası Kənd Təsərrüfatı Texnikası və ehtiyat hissələrinin satışı Birliyi, Azərittifaqın Füzuli rayonlararası Satış Bazasının rayona salınması ilə əhalinin ərzaq və sənaye malları ilə təminatı yaxşılaşmışdır. Ən əsası, işlədiyi dövr ərzində Goranboy və Füzuli rayonlarının kəndlərində çoxlu sayda yeni məktəb binaları, uşaq bağçaları, müalicə və tibb məntəqələrinin tikilməsi ilə insanlara göstərilən xidmətlər yaxşılaşdırılıb. Rayon mərkəzində bir neçə müasir tipli məktəb binaları, kitabxana binası, üç mərtəbəli xəstəxana, klub, uşaq bağçaları və məişət xidmətinin təmin edilməsi üçün binaların tikilməsi ilə əhaliyə göstərilən xidmətlərin təmin edilməsi həyata keçirilib.

Qədim Əhmədovun Goranboy və Füzuli rayon Komitəsinin I katibi vəzifəsində işləyərkən, onun bacarıqlı, işgüzar və təsərrüfatçı bir partiya işçisi olmasına dövlət tərəfindən xüsusi qiymət verilmiş, məhz bu səbəbdən o, işlədiyi dövrdə bir sıra dövlət mükafatları ilə, o cümlədən, 5 dəfə "Qırmızı Əmək Bayrağı" ordeni, çoxlu sayda fəxri fərmanlar və medallarla təltif edilib.

Qeyd edək ki, Qədim müəllimin nəvələri Ədliyyə Nazirliyində və DİN-də dövlətə xidmət etməklə onun dövlətə bağlılıq və xidmət yolunu uğurla davam etdirirlər.

Qədim Əhmədov 2015-ci ildə vəfat edib, o, İmişli rayon qəbiristanlığında dəfn olunub. Hal-hazırda isə Qədim Əhmədovun Füzuli rayon Partiya Komitəsinin I katibi işlədiyi dövrlərdə Ulu Öndər Heydər Əliyev onun yüksək keyfiyyətli iş qabiliyyətinə qiymət verdiyi zaman çəkilmiş tarixi fotoları Şuşa muzeyində sərgilənməkdədir. Həmin şəkillər ümumi fonda təqdim edilir və o zamankı inkişaf dövrünü nümayiş etdirir.

# Əməkdaşlıqda möhkəm təməl: Azərbaycan-Gürcüstan tərəfdaşlığı



***Azərbaycan və Gürcüstan arasında iqtisadi, siyasi, sosial və s. sahələrdə qurulan əməkdaşlıq münasibətləri dövlətlər arasında qarşılıqlı anlaşmanın qurulmasına və davamlı olmasına təsirini göstərir. İki öklə arasında strateji tərəfdaşlıq bütün region üçün nümunədir. Cənubi Qafqaz indiki və gələcək inkişafı baxımından çox böyük əhəmiyyət kəsb edən bu münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması üçün tərəflərdə böyük siyasi iradə və istək var.***

Mövcud münasibətlər çoxşaxəli, qarşılıqlı maraq əsasında qurulub, əməkdaşlıq əlaqələrinin inkişafına üstünlük verilib. Azərbaycan ilə Gürcüstan arasında əlaqələr də möhkəm təməllər üzərində qurulub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mayın 15-də Gürcüstan parlamentinin sədri Şalva Papuaşvilini qəbul etməsi də elə dostluq münasibətlərinin davamlılığına söykənir. Dövlətimizin başçısı Azərbaycanla Gürcüstan arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirərək parlamentlərarası əlaqələr sahəsində səmərəli əməkdaşlığın həyata keçirilməsindən məmnunluğunu ifadə edib. Dövlət başçısı Şalva Papuaşvilinin Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Azərbaycan Respublikası Milli Məclisinin xüsusi iclasında iştirakının əlaqələrimizin genişlənməsi baxımından önəmini qeyd edib. Dövlətimizin başçısı özünün Gürcüstana səfərini, Gürcüstanın Baş nazirinin isə Azərbaycana səfərini məmnunluqla xatırlayaraq, səfərlər zamanı ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi ilə əlaqədar çox ətraflı müzakirələrin aparıldığını diqqətə çəkib.

### ENERJİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASINDA MÜHÜM LAYİHƏ

Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan, eləcə də Gürcüstan mövcud problemlərlə üzləşmiş və birgə layihələr icra olunmuşdur. İlk layihə kimi Bakı-Supsa neft boru kəməri reallaşdırılıb. Bu gün ölkələrimizin bu layihələrin icrası sayəsində enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynadıqları vurğulanıb. Həmçinin Orta Dəhliz vasitəsilə nəqliyyat imkanlarının artırılmasında Azərbaycanla Gürcüstanın əməkdaşlığının mühüm əhəmiyyət kəsb etdiyi qeyd olunub.

Şalva Papuaşvili Ulu Öndərin 100 illiyinə həsr olunmuş tədbirdə iştirak etməkdən şərəf hissi keçirdiklərini bildirdi. Qonaq Ümummilli Liderin Azərbaycanın hərtərəfli inkişafındakı rolunu vurğulayaraq, eyni zamanda, məhz onun rəhbərliyi ilə strateji layihələrin həyata keçirildiyini qeyd edib. Gürcüstan parlamentinin sədri vurğulayıb. Qeyd edib ki, vaxtilə Ulu Öndərin atdığı müdrik addımlar Azərbaycanın gələcəyi üçün böyük önəm daşıyır. O, Azərbaycanla Gürcüstan arasında strateji tərəfdaşlıq əlaqələrinin qurulması işində şəxsən Azərbaycan Prezidentinin roluna görə minnətdarlığını bildirib.

### “BİZİM BİRGƏ HƏYATA KEÇİRDİYİMİZ LAYİHƏLƏR HƏM ÖLKƏLƏRİMİZ, HƏM QİTƏ, HƏM DƏ DÜNYA ÜÇÜN ÖNƏMLİDİR”

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışlarının birində bildirdiyi kimi, biz əsrlər boyu mehriban qonşuluq şəraitində yaşamışıq və bu gün uğurla inkişaf edirik: ”Bizim birgə həyata keçirdiyimiz layihələr həm ölkələrimiz, həm qitə, həm də dünya üçün önəmlidir. Yəni biz çox uğurlu əməkdaşlıq formatı yarada bildik  Bunu bizim siyasi iradəmiz diktə edir. Əminəm ki, biz bütün məsələlərdə hər zaman bir-birimizin yanında olacağıq, bir-birimizə dəstək göstərəcəyik, necə ki, bu günə qədər bütün məsələlərdə həmişə bir yerdə olmuşuq”. İki ölkə arasında bu günə qədər imzalanmış sənədlər əməkdaşlıq üçün yeni imkanlar açıb. İki ölkə arasında diplomatik əlaqələr – 30 il əvvəl 1992-ci ildə qurulub. 1995-ci ilin fevral ayında Bakıda Gürcüstan səfirliyinin, 1996-cı ilin mart ayında isə Tbilisidə Azərbaycan səfirliyinin açılışı ikitərəfli əlaqələrin inkişafına əlavə stimul verib. 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı iki xalq arasında münasibətlərin inkişafına yeni imkanlar açdı. Azərbaycanla Gürcüstan arasında yaxınlığın və əlaqələrin inkişafına böyük təkan verən ikitərəfli münasibətlər mükəmməl hüquqi bazaya malikdir. Bu münasibətlər həm siyasi, həm iqtisadi, həm də sosial-humanitar sahələri əhatə edir. Gürcüstan regionda Azərbaycanın ən yaxın müttəfiqlərindəndir.

Gürcüstanla Azərbaycanı hər şeydən əvvəl Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və TRASEKA kimi qlobal enerji, nəqliyyat-kommunikasiya layihələri birləşdirir. Bununla paralel olaraq, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumlar daxilində əməkdaşlıq ikitərəfli strateji əlaqələri daha da möhkəmləndirib. 1998-ci il sentyabrın 7–8-də keçirilmiş Tarixi Böyük İpək yolunun bərpası üzrə Beynəlxalq Konfrans keçirildi, 1998-ci il oktyabrın 7-də Azərbaycanın Gürcüstanla sərhədində yeni körpünün açılışı oldu, 1999-cu il aprelin 17-də isə Bakı-Supsa neft kəmərini işə salındı. Ötən dövrdə hər iki ölkənin həyatında tarixi əhəmiyyətə malik olan Bakı-Tbilisi-Ceyhan neft ixrac kəmərinin tikintisi sahəsində intensiv işlər aparılıb. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezident İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə bu münasibətlər daha da dərinləşmişdi. Nəhayət, 2005-ci il mayın 24–25-də neft kəmərinin Azərbaycan, oktyabrın 12-də isə Gürcüstan hissəsinin istifadəyə verilməsi mərasimi keçirildi.

### ”BİZ BİRGƏ SƏYLƏRLƏ ÇOX ÖNƏMLİ BÖYÜK LAYİHƏLƏRİ İCRA EDƏ BİLMİŞİK”

Gürcüstanla Azərbaycanı, hər şeydən əvvəl, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və TRASEKA kimi qlobal enerji, nəqliyyat-kommunikasiya layihələri birləşdirir. Bununla paralel olaraq, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumlar daxilində əməkdaşlıq ikitərəfli strateji əlaqələri daha da möhkəmləndirib. Regionda yeni mühüm bir layihəni ərsəyə gətirmək üçün iki dövlətin mövqeləri üst-üstə düşür. Təsadüfi deyil ki, Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində Gürcüstan və Azərbaycanın bütün sahələrdə çox uğurla əməkdaşlıq etdiyini və bu əməkdaşlığın böyük hissəsinin energetika sektoruna aid olduğunu bildirmişdi: ”Bu əməkdaşlığın böyük tarixi var və biz birgə səylərlə çox önəmli böyük layihələri icra edə bilmişik.Əgər tarixə nəzər salsaq, görərik ki, hələ 1990-cı illərin sonlarında Bakı-Supsa neft kəmərinin tikintisi böyük hadisə idi. Bu, imkan verdi ki, Xəzər dənizi Qara dənizlə neft kəməri ilə birləşsin. Ondan sonra, əlbəttə ki, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri tikildi. Bütün bunları, biz, yəni üç ölkə - Azərbaycan, Gürcüstan və Türkiyə birgə səylərlə həyata keçirdik”. Həyata keçirilən bu layihələr iqtisadi inkişafa böyük təsirini göstərməkdədir.

### ”ƏMƏKDAŞLIĞIMIZIN ÇOX BÖYÜK PERSPEKTİVLƏRİ, ƏN ƏSASI İSƏ, GÜCLÜ SİYASİ İRADƏ VAR”

Azərbaycanda yaşayan gürcülər və Gürcüstanda yaşayan azərbaycanlılar əlaqələrimizin inkişafında mühüm rol oynayırlar. Gürcüstan və Azərbaycanın çoxmillətli, çoxkonfessiyalı ölkələrdir. Bütün sahələrdə uğurlu əlaqələr böyük layihələrin reallaşmasına səbəb olur və iki dövlət arasında olan dostluğun təməlini daha da möhkəmləndirir. Prezident İlham Əliyevin çıxışlarının birində qeyd etdiyi kimi: ”  bizim bütün sahələr üzrə əməkdaşlığımızın çox böyük perspektivləri, ən əsası isə, güclü siyasi iradə var. Gürcüstan və Azərbaycan bundan sonra da bir-birini dəstəkləyəcək. Biz reallaşan layihələri bundan sonra da inkişaf etdirəcəyik və yeni layihələr haqqında düşünəcəyik”.

Bildiyimiz kimi, Azərbaycan-Gürcüstan dostluğunun çox qədim tarixi kökləri var. Əsrlər boyu qonşu olan Azərbaycan və gürcü xalqları arasında heç bir zaman ciddi problem, münaqişə olmayıb. Azərbaycan-Gürcüstan dostluğu Cənubi Qafqazda əməkdaşlığın və təhlükəsizliyin qarantına çevrilib. Gürcüstanda yaşayan azərbaycanlılar Gürcüstanın dövlətçiliyinə dəstək olmuşlar. Bu əlaqələr bu gün uğurla davam etdirilir. Dövlətləri tarixi dostluq, mehriban qonşuluq münasibətləri, eləcə də sıx strateji tərəfdaşlıq birləşdirir.Göründüyü kimi, dövlətləri birləşdirən çoxtərəfli əlaqələr, eləcə də çoxəsrlik dostluq, qardaşlıq münasibətləri möhkəm təməl üzərindədir. Azərbaycan - Gürcüstan arasında strateji tərəfdaşlıq əlaqələri müttəfiqlik səviyyəsinə yüksəlib. Bütün beynəlxalq təşkilatlarda hər iki dövlət bir-birini dəstəkləyir. Azərbaycan və Gürcüstanın birgə icra etdiyi layihələr region dövlətləri ilə yanaşı Avropa ölkələri üçün də böyük əhəmiyyət daşıyır.

***Nəzakət ƏLƏDDİNQIZI***



# Heydər Əliyev irsini öyrənirik!

*Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər*



“Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, Ümummilli Liderin xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

2023-cü il mayın 17-də YAP Qubadlı rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Sumqayıt şəhər Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub. Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, ümummilli lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib, gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar.



# Daş yaddaşımıza salınan izlər: tarixi və ZƏFƏR muzeylərimiz

***Xalqın tarixi irsi və mənəvi dəyərlərinin qoruyucusuna çevrilən muzeylər neçə illərin, qərinələrin yolunda bizlərə həyatımızın yaşanılan tarixindən olan xəzinələri təqdim edirən eksponatları, nadir nümunələri ilə Azərbaycan xalqının kimliyini sərgiləyir. İlmələrin toxunuşunda, musiqilərimizin dilində, poeziyamızın qanadlarında əks olunan ictimai-siyasi hadisələrin əksi tariximizdən soraq verir. Tarixi qəhrəmanların gücündə, istiqlal və mücadiləmizdə yaşanılan birlik və həmrəyliyi yaşadan tarixi nümunələr bu məkanlarda qorunub saxlanılır.***




Ən əsası da bu dövləti qurub-yaradan Dahi Şəxsiyyət Heydər Əliyevin keçdiyi həyat yolunun fəlsəfəsini əks etdirən nümunələr Onun adını daşıyan muzeylərdə qorunub saxlanılır. Bakıda yerləşən Heydər Əliyev Mərkəzinin ən cəlbedici və maraq doğuran bölümü Heydər Əliyev Muzeyidir. Dizaynı və burada tətbiq edilən yeni texnologiyalarla fərqlənən muzey Mərkəzin modern üslubu ilə həmahəngdir. Muzey Azərbaycan tarixinin və Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dönəmlərini əks etdirir. Burada toplanan məlumatlar ziyarətçilərə interaktiv formada çatdırılır. Muzeydə Ümummilli Lider Heydər Əliyevə aid maraqlı faktlar, foto və video materiallar və digər unikal eksponatlar təqdim olunur. Azərbaycanın bir sıra yerlərində belə muzeylər fəaliyyət göstərir.





Hər il dünyada 18 May Beynəlxalq Muzeylər Günü kimi qeyd edilir. Bu bayram, bir qayda olaraq, "Xalqlar arasında mədəni mübadilə və əməkdaşlığın inkişafına kömək" şüarı ilə keçirilir. Beynəlxalq Muzeylər Günü - Beynəlxalq Muzeylər Şurasının təşəbbüsü ilə 1977-ci ildə təsis olunub. Beynəlxalq Muzeylər Gününün əsas məqsədi muzeylərin cəmiyyətin həyatında nə qədər mühüm bir rol oynadığını göstərməkdir. Bu bayram dünyanın 150-dən artıq ölkəsində qeyd edilir. Tarixi, maddi və mənəvi abidələrlə zəngin olan ölkəmizdə də Beynəlxalq Muzeylər Günü qeyd edilir. Azərbaycanda da bu gün qeyd olunmaqdadır. Azərbaycanda muzey işinin tarixi çox da qədim deyil. Azərbaycanın ictimai-siyasi və mədəni həyatında XIX əsrin ikinci yarısından etibarən, sürətlə cərəyan edən proseslər muzey işinin təşkilinə təkan vermişdir. İlk belə muzeylərdən biri görkəmli ədib Cəlil Məmmədquluzadənin təşəbbüsü və yaxından iştirakı ilə XIX əsrin sonlarında Naxçıvanın Nehrəm kənd məktəbində təşkil olunmuşdur. Ötən əsrin əvvəllərində isə Bakıda, xalq məktəbləri müdiriyyəti nəzdində pedaqoji, həmçinin, Ümumrusiya Texniki Cəmiyyətinin Bakı şöbəsi nəzdində qapalı muzeylər yaradılmışdır. Lakin Nehrəm kəndindəki muzey istisna olmaqla, adları qeyd edilən məkanlar çarizmin maraqlarına xidmət etmişdir. Təsadüfi deyil ki, Azərbaycanda aşkar edilən qiymətli arxeoloji əşyalar Tbilisi, Moskva və Peterburq muzeylərinə göndərilmişdir. Azərbaycanda muzeylərin təşəkkül tapmasının əsası XX əsrin ikinci onilliyinin əvvəllərində qoyulmuşdur. "Doğma diyarın öyrənilməsi muzeyi" adlanan ilk muzey 1920-ci ildə Bakıda, ilk memorial muzey isə 1938-ci ildə Şəkidə yaradılmışdır. Azərbaycanın dəyərli eksponatları 1920-ci ildə ilk muzey yaranana qədər Rusiya, Avropa, o cümlədən, Böyük Britaniya muzeylərini bəzəsə də, bu gün tariximiz və incəsənət nümunələrimiz dövlət muzeylərimizdə nümayiş olunur. Azərbaycanda muzey fondu ölkə milyonçularının sovet hakimiyyətinin ilk illərində müsadirə edilmiş sənət əsərləri əsasında yaradılmışdır. H.Z.Tağıyeva, M.Muxtarova, M.Nağıyeva, bir sözlə, Bakı milyonçularına məxsus qiymətli sənət əsərləri ilk muzeyimizin eksponatları olmuşdur.

### AZƏRBAYCANIN 60-DƏK RAYONUNDA TARİX-DİYARŞÜNASLIQ MUZEYİ YARADILDI

Ölkəmizdə bu sahənin inkişafı, muzeylər şəbəkəsinin yaradılması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Liderimiz həmişə muzeylərə böyük önəm vermiş, bu sahəyə də diqqət və qayğı ilə yanaşmışdır. Xalqımızın böyük oğlu Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə respublikamızda muzeylərin, xüsusilə, tarix-diyarşünaslıq, xatirə, ev-muzeylərinin və digər profili muzeylərin yaradılması, onların maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədi ilə mühüm tədbirlər həyata keçirmişdir. Qısa müddətdə Azərbaycanın 60-dək rayonunda tarix-diyarşünaslıq muzeyi yaradılmışdır. Dahi Öndərin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra mədəniyyət sahəsi, həmçinin, muzey işi öz inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1993-cü ildə Nazirlər Kabinetində muzey işçilərinin respublika müşavirəsi keçirilmişdir. 1994-cü ildə bu müşavirənin materialları əsasında "Respublikada muzey işinin vəziyyəti və onun yaxşılaşdırılması haqqında" qərar qəbul edilmişdir. 2000-ci il martın 24-də qüvvəyə minmiş "Muzeylər haqqında" Azərbaycan Respublikasının Qanunu ölkəmizdə muzeylərin fəaliyyətinin təşkilati-hüquqi əsaslarını müəyyən edir və bunlarla bağlı münasibətləri tənzimləyir. Bu gün Prezident İlham Əliyev tərəfindən bu sahədə uğurlu addımlar atılır, böyük layihələr reallaşır. Hazırda Azərbaycanda 200-dən çox muzey fəaliyyət göstərir. Dövlətimizin başçısı İlham Əliyevin "Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində İstiqlal Muzeyinin yaradılması və İstiqlal Abidəsinin ucaldılması haqqında" 2006-cı il 18 dekabr və "Müasir İncəsənət Muzeyinin yaradılması haqqında" 2006-cı il 19 dekabr tarixli sərəncamları muzey işinə dövlət qayğısının aydın təzahürüdür. Prezident İlham Əliyevin "Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında" 2007-ci il 6 mart tarixli Sərəncamı, 2009-cu il 22 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycanın regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi tədbirlər planı" və digər normativ aktlar bu sahədə hüquqi bazanın formalaşdırılmasının əyani ifadəsidir. Həmin Sərəncama əsasən, Azərbaycan Xalçası və Xalq Tətbiqi-Sənət Dövlət Muzeyinin müasir tələblərə, beynəlxalq standartlara cavab verməsi üçün yeni binada fəaliyyət göstərməsi məqsədəuyğun hesab edilmiş, muzeyin yeni binası tikilmişdir.

### ERMƏNİ TƏCAVÜZÜ NƏTİCƏSİNDƏ 100 MİNDƏN ARTIQ ƏŞYANIN TOPLANDIĞI 22 MUZEY İŞĞAL OLUNMUŞ ƏRAZİDƏ QALMIŞDI

Bu gün işğaldan azad olunan ərazilərimizdə muzeylərimizə yeni həyat verilir. Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti nəticəsində 30 il ərzində maddi-mədəniyyət abidələrimiz vəhşicəsinə dağıdılaraq, yerlə-yeksan edilmişdir. Əlbəttə ki, bu erməni vandallığının bir nümunəsidir. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu tarixi torpaqlarımızı düşməndən azad etdikdən sonra erməni vandallarının bədxah əməlləri bütün dünyaya çatdırıldı və dünya özü bu vəhşiliyin canlı şahidinə çevrildi. Azərbaycanın işğaldan azad olunmuş ərazilərində kitabxanalar, mədəniyyət evləri, mədəniyyət mərkəzləri, klublar, muzeylər, uşaq musiqi məktəbləri daxil olmaqla, 180 mədəniyyət obyekti tamamilə dağıdılıb. Ermənı tərəfinin törətdiyi qeyri-insani hərəkətlərinin ağır nəticələrini nəinki insanlarımız, eləcə də tarixi-dini mədəniyyət abidələrimiz də yaşamışdır. 1988-ci ildən başlayaraq, erməni təcavüzü nəticəsində 100 mindən artıq əşyanın toplandığı 22 muzey işğal olunmuş ərazidə qalmışdı. Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyində 30 mindən artıq tarixi əhəmiyyətli əşya olub. Zəngilan, Qubadlı, Cəbrayıl rayon Tarix-Diyarşünaslıq Muzeylərində də minlərlə abidə talan edilib. Bu muzeylərdə qorunub saxlanılan eksponatlar ermənilər tərəfindən ərazidən çıxarılıb. Bir qisim muzey əşyalarımız 3-cü ölkələrə də aparılıb. Canlı muzey hesab olunan Şuşa şəhərində 8 muzey fəaliyyət göstərmişdi. Şuşanın işğalı zamanı Xalça və Tətbiqi Sənət Muzeyinin Şuşadakı filialı, Üzeyir Hacıbəylinin Şuşadakı Ev Muzeyi və s. işğala məruz qalıb. Şuşa şəhərində Şuşa və Xankəndi diyarşünaslıq muzeyləri tamamilə dağıdılıb. Dövlət Qarabağ Tarixi Muzeyi, Natəvanın, Bülbülün, Əbdürrəhimbəy Haqverdiyevin, Mir Mövsün Nəvvabın və başqalarının ev muzeyləri, Qurban Pirimovun Ağdamdakı xatirə muzeyi, Ağdam, Füzuli, Xocalının tarix-diyarşünaslıq muzeyləri tamamilə qarət edilib. Eyni zamanda, Ağdamdakı unikal Çörək muzeyi də digər muzeylər kimi dağıdılıb. Bu gün işğaldan azad olunan ərazilərimizdə aparılan abadlıq-quruculuq işləri çərçivəsində muzeylərimiz də bərpa və təmir olunur. Musiqiçilərdən Bülbülün, Üzeyir Hacıbəylinin ev muzeyləri təmir və bərpa olunub.

### MİLLİ XALÇA MUZEYİNİN ŞUŞA FİLİALI

Milli Xalça Muzeyinin Şuşa filialı da özünəməxsusluğu ilə seçilib. XIX əsrin ikinci yarısında tikilmiş binası şəhərin Yuxarı məhəlləsində yerləşir. İşğal dövründə bina yararsız hala düşdüyündən və tarixi görkəminə müdaxilələr edildiyindən burada 2021-ci ildən etibarən Heydər Əliyev Fondu tərəfindən bərpa işlərinə başlanılmışdı. Görülmüş işlər nəticəsində binanın daxili divarları, döşəmələri, tavanları bərpa olunub. Sonradan alçıpanla bağlanılan qapı, pəncərə, tavan və arakəsmə divarlar götürülərək binanın tarixi siması özünə qaytarılıb. Binanın fasadındakı çatlar bərpa olunub və daşla üzlənib. Qarabağ torpaqlarının Ermənistanın işğalına məruz qaldığı dövrdə Azərbaycan Milli Xalça Muzeyi filialda saxlanılan sənət nümunələrinin təhlükədə olduğunu nəzərə alaraq, 1992-ci il fevralın 29-da onların təxliyəsini təşkil etmişdi. Beləliklə, Şuşa filialının kolleksiyasındakı 246 eksponatdan 183-ü Bakıya gətirilmişdi. Şəhər işğal altında olduğu dövrdə Şuşa filialı öz fəaliyyətini Azərbaycan Milli Xalça Muzeyində davam etdirirdi.

Artıq bu gün muzey bərpa və təmir olunaraq istifadəyə verilib. Ziyarətçilərin eksponatlar haqqında daha dolğun məlumat əldə edə bilmələri üçün ekspozisiyada sensor ekran quraşdırılıb. Ekranda Qarabağın, xüsusilə də Şuşanın maddi və qeyri-maddi irs nümunələri, kübar ailələri, xarici kolleksiyalarda qorunan Qarabağ xalçaları, Şuşa filialının 1992-2022-ci illər ərzindəki fəaliyyəti haqqında məlumatlar verilir.

Azərbaycan xalqının tarixi, mədəniyyəti və məişəti ilə, dövlət və cəmiyyətin həyatındakı ən mühüm hadisələrlə, elm və texnikanın, incəsənət və ədəbiyyatın inkişafı ilə, ictimai-siyasi, elm, mədəniyyət və incəsənət xadimlərinin, hərbçilərin, tarixi hadisələrin fəal iştirakçılarının həyatı ilə bağlı olan əşyaların və kolleksiyaların qorunduğu muzeylərə diqqət və qayğı artmaqdadır.

***Zümrüd BAYRAMOVA***

RAKURS

# İrəvanın çobanyastığı proqnozu



**_Ermənistanla Azərbaycan arasında aparılan sülh müzakirələrinin məntiqi sonluqla bitməməsinin səbəbləri çoxdur. Amma bir səbəb var ki, onsuz Ermənistanın qərar verməsi, sadəcə, mümkün deyil. Çünki bu ölkə hələ də, yumşaq desək, kimin çətiri altında özünü yağışdan, günəşdən qoruyacağını qətiləşdirə bilməyib. Kimin yanında, kimin qucağında, kimin ətəyindən yapışaraq duracağını erməni dövləti hələ də müəyyənləşdirməyib. Kimə tərəf yaxınlaşır-sa o biri tərəfdən zərbələr alır. Bəs nə etməli? Ümidini çobanyastığı gülünə bağlayan bədbəxt sevgilinin aqibətini yaşayan Ermənistan dövlətinin son qərarınımı gözləməliyik?_**





Ermənistanın taleyini həll etməyə həvəsli görünən ölkələr son zamanlar lap sıraya düzülüblər, türklər demiş, quyruq yaradıblar. ABŞ Ermənistana Rusiya bazası və sərhədçilərinin yerləşdirilməsindən imtina etməyi "tövsiyyə edir", bunun müqabilində "təhlükəsizliyi təmin edəcəyini" vəd edir. Faktı Rusiyanın xarici işlər naziri Sergey Lavrov da təsdiq edib. Deyib ki, ermənilər Vaşinqtonun onlara tərəf gəlməsini təklif edir. Deyir, bizə gəlin, rusları öz ərazinizdən qovun, sərhədçiləri də, hərbi bazanı da ərazilərinizdən çıxarın və amerikalılar təhlükəsizliyin təmin olunmasına kömək edəcəklər. Lavrov bunu açıq təxribat adlandırıb. Bunun diplomatiya olmadığını bildirib: "Artıq diplomatiya yoxdur. Birbaşa rüşvət var".

Lavrov Ermənistan rəhbərliyinə xatırladıb ki, ABŞ-a çox da ümid etməyin, çünki onlar müttəfiqlərini tez-tez tərk edirlər. "Biz Qərbin keçmişdə bir növ mərc etdiyi şəxslərlə necə davrandığını görürük. "Ərəb baharı"nın əvvəlində ləyaqətlə istefa verən Misir prezidenti Hüsnü Mübarəkdən əl çəkdilər. ABŞ bu ölkənin iyirmi illik işğalı zamanı güvəndiyi Əfqanıstan rəhbərliyindən əl çəkdi".

Qeyd edək ki, Rusiyanın 102-ci hərbi bazası Ermənistan ərazisində yerləşdirilib. Gümrüdəki 102-ci Rusiya hərbi bazasının hava komponenti də İrəvanda yerləşən Erebuni aviabazasıdır. İllər uzunu Rusiya Ermənistanın təkcə hərbi obyektlərini, təhlükəsizliyini yox, eyni zamanda bütün iqtisadi, sosial, kənd təsərrüfatı sektorunu öz əlinə keçirib və onu buraxmaq fikrində də



deyil. Hətta KTMT vasitəsilə İrəvanın hərbi doktrinasını da həyata keçirir. Reallıq budur ki, Rusiya KTMT-də əsas skripka polunu oynayır, indi də digər qonşularla maraqlanır.

Britaniyanın baş nazirlərindən biri deyib ki, əbədi dostlar yoxdur, yalnız əbədi maraqlar var. Kimin ağlına gələrdi ki, bizim dövrümüzdə bu bəyanatı Ermənistan-Rusiya münasibətləri üzərində sınaqdan keçirmək lazım gələcək. Bir vaxtlar Rusiya ilə Ermənistan müttəfiq və dost idi. Bu birliyin nə vaxtsa başa çatacağını çox az adam təxmin edə bilərdi. Amma insanlar ümumiyyətlə bir şeyə, yəni əbədi dostluğa inanmağa meyllidirlər. Ermənistan və Rusiya istisna deyildi. İrəvan Moskvanı hərracda satana, bu qədər dəstəyin müqabilində ona arxadan zərbə vurana qədər hər şey normal idi. Uzunmüddətli strategiyasını, əzəli maraqlarını unudan Ermənistan özünü Rusiya siyasətçilərinin xəyanətinin qurbanı hesab edir və ondan ayrılmaq yolunu tutub. Amma bu ayrılıq o qədər primitivdir ki, Rusiyanın İrəvanı cəzalandırmaqdan imtina üçün əl yeri qoymur.

Ermənilər düşünür ki, Moskva onları əbədi olaraq, həm də motivindən, şəraitdən və mövzusundan asılı olmayaraq dəstəkləməyə borcludur. II Qarabağ savaşında uğradıqları ağır məğlubiyyətdə əsas günahı Rusiyada görən ermənilər bu "xəyanəti" qanla yumaq qərarına gəliblər. Qarabağ savaşında itirilən əsgərlərin günahını da Rusiyada axtaran ermənilər düşünürlər ki, Putin Rusiyasının xəyanət olmasaydı, nə insan, nə də "torpaq" itkisi olmazdı. Ermənilər siyasətçiləri də hədəfdə saxlayırlar, gələcəkdə bir daha belə xəyanətin qurbanı olmamaq üçün səhvlərdən dərs almaq əvəzinə, Rusiyaya göz dikməyi də ağır xəyanətlər sırasına salırlar, çünki Moskva onları atıb, həm də həmişəlik.

Ötən gün Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan bəyan edib ki, xarici işlər nazirinin müavini Mnatsakan Səfəryan Rusiyanın Ermənistanı sadəcə olaraq silah ticarətində aldatdığını təsdiqləyib. Halbuki, bunun üçün İrəvan valyuta ilə ödəniş edib. Yəni ortada dövlət səviyyəsində elementar dələduzluq var. Ermənilər sual verir, 2020-ci ildəki xəyanətdən sonra Moskvaya silah pulu hansı yolla ödənilib? Yaxud, başqa silah alverçisi tapa bilmədilərmi? Halbuki, silah bazarı onlarla doludur. Məsələn, bir neçə ildir ki, Ermənistana təkcə öz silahlarını deyil, həm də hərbi-texniki əməkdaşlığı təklif edən Hindistan, ya da Fransa. Paris Ermənistandan imtina etmək fikrində deyil. Ancaq bəzi erməni siyasətçilərinin gözü hələ də Moskvanın gözünə sədaqətlə dikilib və metal qırıntıları üçün şimala çoxlu pul göndərir.

Ermənistanın da üzv olduğu KTMT-nin qalan üzvləri əlbəttə ki, İrəvana kömək əlini uzatmayacaqlar. Bəs bu təşkilatda bundan sonra da qalmaq Ermənistana nə verə bilər? Ermənilər düşünürlər ki, "Moskvanın davamlı təhdidləri ilə MDB-dən çıxmaq prosesinə başlayan Moldovanı nümunə götürmək olar. Dünyada Ermənistanın təhlükəsizliyinə zəmanət verən başqa mexanizmlər də var. Məsələn, NATO, Aİ, Fransa. Niyə KTMT-nin çürümüş meyitindən bu qədər inadla yapışıblar? Doğrudanmı Nikol hakimiyyəti bu qədər qorxaqdır?".

Xatırladaq ki, Paşinyan hələ deputat olarkən Ermənistanı KTMT-dən çıxmağa çağırmışdı. KTMT-dən çıxmaq çağırışları hələ də müxalifətçi deputat olarkən KTMT-ni və Rusiya siyasətini daim tənqid edən Nikol tərəfindən səsləndirilmişdi. İndiki müraciətlər bu siqnalların sadəcə olaraq yeni formatda davamıdır. KTMT obyektiv olaraq belə əsaslar verib, amma başqa cür hərəkət edə bilməzdi. KTMT-nin çatışmazlıqları var, lakin bu təşkilat hərbi baxımdan funksional olsun deyə yaradılmayıb. Rusiyaya bu, NATO-nun postsovet məkanı ölkələrində mövcudluğunu balanslaşdırmaq üçün lazım idi. 44 günlük müharibə zamanı KTMT konkret problemlə üz-üzə qaldı, konkret addımlar tələb olundu və məlum oldu ki, onlar üçün qismən hazırlıqsız, qismən hazır, qismən addımlar atıb və atmağa çalışır. Təşkilatın müəyyən hərəkətsizliyi antierməni və ya ermənipərəst mövqe ilə deyil, KTMT-nin hər hansı üzvü ilə bağlı məsələdə ilkin olaraq bunu etməyə hazır olmaması ilə bağlıdır. Bu gün Rusiya münaqişədə iştirak edir, lakin KTMT-nin aktivləşdirilməsindən söhbət getmir.

İran da KTMT ilə əməkdaşlıqda maraqlıdır və Ermənistan İranın Təşkilata üzvlük prosesinə töhfə verməsi gözləniləndir. Amma Ermənistan KTMT-yə dəstəyi müqabilində digər regional təşkilata qarşı çıxa bilərmi? KTMT və ya başqa təşkilat dəstək müqabilində tələb irəli sürərsə necə, İrəvan daha nə, yaxud nəyini verə bilər? KTMT kömək etmir, amma Ermənistanın qonşuları ilə münasibətlərinə müdaxilə də etmir.

Bu gün gündəmdə olan Ermənistanla Azərbaycan arasında imzalanması gözlənilən sülh müqaviləsidir. İmzalanma çətin ki, vəziyyəti tam sakitləşdirsin. Bu barədə fikirlərini mətbuata bildirən alman politoloqu Aleksandr Rar deyib ki, hərbi hərəkətlər olmasa yaxşıdır, amma hər şey xarici aktorlardan asılıdır, çünki son 30 ildə Qarabağdakı münaqişə hadisələrin gedişinə təsir etmək istəyən və öz təsirləri uğrunda mübarizə aparan xarici aktorlarla əlaqələndirilib. Söhbət ABŞ, Türkiyə, Rusiya, Çin, Avropa İttifaqından gedir".

Əgər xarici aktorlar Ermənistan-Azərbaycan münaqişəsindən öz geosiyasi məqsədləri üçün istifadə edərək bir-biri ilə rəqabətə başlamasalar, o zaman, ekspertin fikrincə, müsbət dönüşdən danışmaq olar: "Ancaq xarici oyunçular geosiyasi oyunlara başlasalar və münaqişədən öz məqsədləri üçün istifadə edərək bir-birini sıxışdırsalar, vəziyyət sakitləşməyəcək.

**_Ardı Səh. 13_**

# İrəvanın çobanyastığı proqnozu




Əvvəli-Səh-12

ABŞ və Aİ Rusiyaya qətiyyən əhəmiyyət vermədən hərəkət edir, Cənubi Qafqaz regionuna isə Moskva onun təsir zonası kimi baxır: Ermənistan və Azərbaycan ABŞ və Aİ-dən fərqli olaraq coğrafi baxımdan Rusiya Federasiyasına yaxın ölkələrdir. ABŞ, Aİ, Türkiyə, Rusiyanın iştirakı ilə beynəlxalq təşəbbüsə üstünlük verilir. Bu halda münaqişənin sona çatmasında uğur şansı daha yüksək olacaq. Və beləliklə, münaqişədən Qərbin Rusiyanı regiondan daha da sıxışdırmaq üçün istifadə etməsi təhlükəsi var ki, bu da əks effekt verə bilər. Ukrayna münaqişəsindən sonra Moskvanın əlləri açıla bilər. Bu, münaqişənin yenidən başlaya biləcəyi təhlükəsidir".

Aleksandr Rar Qarabağla bağlı danışıqlarda ən çətin məsələnin də adını çəkib: "Blinkenin dediyi kimi, İrəvan və Bakının sülh müqaviləsi imzalamağa yaxın olması barədə tərəflərin bəyanatını eşitsək nəticəyə inanmaq asan olacaq. Bəli, əgər bu müqavilə ABŞ-ın səyləri ilə imzalansa və sonra ratifikasiya olunarsa, o zaman Vaşinqton Qafqazda uğurlu diplomatiya apardığını deyəcək. ABŞ-ın da buna həqiqətən ehtiyacı var, çünki onlar Rusiyanın oradakı mövqeyini zəiflətməyə, postsovet məkanında təsirini artırmağa çalışırlar. Amerikalıların əvvəllər, son 30 ildə ATƏT-in Minsk Qrupu formatında vəziyyətə təsir etmək imkanları çox idi, lakin onlar az şey etdilər. Məni təəccübləndirir ki, indi ABŞ-ın Cənubi Qafqazda siyasətini bu qədər ciddiləşdirib. Digər tərəfdən, bu, tərəflərin razılığa gəlməsinə mane olmasa da, başqa fəsadlar törətməyəcəyini söyləmək də olmaz".

Digər tərəfdən, Ermənistan rəhbərliyi və ermənilərin Türkiyədə keçirilən prezident seçkilərinə niyə və nə üçün ümid bəslədikləri də faş olub. Ermənistan üçün kim - Ərdoğanın, yoxsa Kılıçdaroğlunun daha yaxşı olması müzakirə edilməkdə idi. Bəziləri "bunu heç bir fərqi yoxdur" kimi bəyanatlar verirlər, amma Ermənistanda əksəriyyət Türkiyə prezidentliyinə namizəd Kamal Kılıçdaroğlunun qalib gəlməsini arzulayır. Səbəb də budur ki, Türkiyədə kimin hakimiyyətdə olmasından asılı olmayaraq dost ölkə ola bilməz. Amma Kılıçdaroğlu daha çox qərbyönlüdür və proqramında ermənilərə də yer ayırıb.

Xatırladaq ki, 2011-ci ildə Kılıçdaroğlunun erməni köklərindən bəhs edən broşür paylanıb. Orada yazılıb: "Qılıçdaroğlu Qərb tərəfindən daha çox idarə olunacaq, onun xarici siyasəti Ermənistanla dialoq üçün daha əlverişlidir, nəinki partiyası "Boz Qurdlar"la əməkdaşlıq edən, ermənilərlə bağlı planlarını gizlətməyən Ərdoğan".

*V.VƏLİYEV*

# "Nar" 5G sürətini Sumqayıta gətirdi!




"Nar" ultra sürətli 5G texnologiyasını Sumqayıt şəhərində test rejimində təqdim edir. Bununla da, "Nar" 5G texnologiyasını paytaxtdan kənara gətirən ilk mobil operator olub. Abunəçilər 5G texnologiyasını dəstəkləyən şəxsi mobil telefonları ilə Sumqayıt şəhəri, 2-ci mikrorayon, Sülh küçəsi 34 ünvanında yerləşən "Nar" mağazasında şəbəkəyə qoşula və ya mağazada şəbəkəyə qoşulmuş cihazlardan istifadə edərək 5G sürətini sınaqdan keçirə bilərlər.

İlk dəfə 5G şəbəkəsinə qoşulan "Nar" abunəçiləri *775#YES şifrəsini yığmaqla 10GB həcmində pulsuz 5G internet paketi əldə edə bilərlər ki, bu da onlara gün ərzində həmin ərazidə 5G sürətini sınaqdan keçirməyə imkan verəcək.

"Abunəçilərimiz üçün mümkün ən yaxşı rəqəmsal təcrübəni təmin etmək üçün ilk dəfə olaraq paytaxtdan kənarda-Sumqayıtda 5G texnologiyasını təqdim etməkdən qürur duyuruq. Əminik ki, bu yenilik müştərilərimizə yeni rəqəmsal imkanları araşdırmaq üçün əla fürsət yaradacaq", - deyə "Nar"ın Baş İcraçı direktoru Qunnar Panke bildirib.

Qeyd edək ki, hal-hazırda keyfiyyətli və kəsintisiz "Nar" şəbəkəsi ölkə ərazisinin 98%-ni, əhalinin isə 99%-ni əhatə edir. "Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.



**Mətanət Məmmədova**

# 13-ü 37-yə rəva bilən...

***Nədənsə cəmiyyətimizin əksər fərdi ana olmağın mahiyyətini anlamamaqda davam edir. Onlar düşünürlər ki, uşaq doğdunsa, oldun ana. Lakin bu fikirlə qətiyyən razılaşmayanlardan biri kimi deyərdim ki, əlbəttə, uşaq doğmaq heç də ana olmaq deyil. Qarşıda anaya məxsus vəzifələri yerinə yetirəndə, ana anlayışını anlayıb buna uyğun davrananda və həyat verdiyin övladın üçün bu həyatda ana olmağı bacaranda ana olursan, bu adı haqq edirsən. Yoxsa hər an dünyaya insan gəlir. Onların hər birini isə bir qadın dünyaya gətirir. Belə olan halda onların hər biri anadırmı?***

Ana olmasından cəmi bir neçə saat sonra uşağını küçəyə atanlar var, onlar anadırmı? Uşağına süd verməkdən imtina edən qadınlar var, onlar anadırmı? Övladını hansı yolla olursa-olsun, qazanc dalınca göndərib özü evdə oturanlar var, onlar anadırmı? Uşağının təhsilinə, sağlamlığına əhəmiyyət verməyən qadınlar var, onlar necə, anadırmı? Yoxsa 13 yaşlı qızını 37 yaşlı kişiyə rəva bilən anadır?..

Bəli, ana öz azyaşlı, məktəbyaşlı balasını ondan 24 yaş böyük dayıoğlusu ilə nişanlayır. İddiaya baxın: ərim həbsxanadadır. Çıxanda məni öldürəcək, qız qalacaq ortalıqda. Ona kim baxacaq?

Birincisi, dayıoğluda arsızlığa baxın. Belələrinə fürsətdən istifadə edən adamlar deyirlər. Uşağın atasızlığından, anasının ana adının mahiyyətini dərk etməməsindən istifadə edib körpə uşağa sahiblənmək istəyir. Utanmadan onunla evlənməyə razılıq verir.

İkincisi, dayıoğlunun anasında düşüncəsizliyə baxın ki, 37 yaşlı oğlu olan ananın yəqin 60-a yaxın yaşı var, bu qadın nəinki analığın, ağbirçəkliyin nə demək olduğunu dərk etmir. Demir ki, ay bala, bu böyük qəbahətdir. O sənin tay-tuşun deyil.

Üçüncüsü, 13 yaşlı körpənin anasında ana adına layiq olmayan nüansa baxın. Əri bunu öldürəcək deyə, o da qızını öldürmək istəyir. Düşünür ki, onu qoruyur, amma anlamır ki, onu daha dəhşətli bir ölümə yuvarladır. O ölüm ki, qızını zərrə-zərrə məhv edəcək. Süründürə-süründürə sonuna çıxacaq.

13 yaşlı uşaq nə anlayır nişan nədir, toy nədir? Bu uşaq oxumaq istəyir, niyə qoymursunuz məktəbə? Başqa dövlətlərdəki kimi məktəb ödənişlidirmi? Xeyr, hər kəsin qapısını aça biləcəyi təhsil ocaqlarımız var. Ölkəmizdə təhsil pulsuzdur. Bəs nədir məqsəd qızını məktəbdən uzaqlaşdıran bu anada? Ona ər tapmaqmı, onun hesabına dolanışıq yolu seçməkmi?

Ana olmaq... Vallah bilmirəm ağlayım, yoxsa, gülüm... Ana olmaq elə böyük bir anlayışdır ki, bunu dərk etmədən ana ola bilməzsən.

Doğmayın, nə olar, doğmayın bu uşaqları... Onlara zülm vermək üçün gətirməyin dünyaya. Nə səbəbə doğursunuz onları? Nə üçün bəzən günahlarınızın, bəzən kiməsə bağlanmaq kimi istəklərinizin qurbanı edirsiniz bu uşaqları, nə üçün?

İndi hansı əsrdəyik ki, 13 yaşlı qızımızı ərə verək. Qayınana deyir ki, biz nişan qoyuruq da, toyu nikah yaşında edəcəyik. Sual verirəm, məgər 13 yaş nişanlanmaq vaxtıdır? Ay ana, sən nə danışdığını anlayırsanmı? Belə hər şeyin yerini bilənsənsə, deyərdin ki, 13 yaş nişanlanmaq vaxtı deyil də...

Siz yaxşı qohumsunuzsa, köməklik göstərin, ailəni vəziyyətdən çıxarın, qızcığazın oxumasına yardım edin. Onu yaxşı bir gənc kimi yetişdirin. Sabah da o sizə kömək edər, əl tutar. Yoxsa fürsətdən istifadə edib körpə uşağın başına bu cür oyunlar gətirməyin. Allahı görün yuxarıda.

Vallah, adamı heyrət bürüyür: ana deyilən varlığın 13 yaşlı balasını 37 yaşlı kişiyə rəva bilməsinə necə qərar verdiyi yalnız heyrət doğurur...

# Parisin cəhdi ona baha başa gələcək



*Fransanın Ermənistana verdiyi silahlar Moskva və Tehrana hədiyyədir?*

***Məlum olduğu kimi? Fransa Ermənistana silah və hərbi texnika tədarükünə başlayıb. Məhz bu addımı ilə rəsmi Paris Moskva və Tehranla birlikdə İrəvanın hərbi-siyasi himayədarı rolunda çıxış etdiyini təsdiqləyir. Lakin 2022-ci ilin noyabrında İsrailin "Hamodia" nəşri fransızların erməniləri silahlarla, ağır texnikalarla təchiz edəcəyi planları barədə məqalə ilə çıxış etmişdi. Nəşr qeyd edib ki, bu plandan Rusiya qazanacaq. Belə ki, Avropanı təchiz edən energetika sahəsində, məhz Azərbaycan Rusiyanın əsas rəqibidir.***

### "Hamodia" qeyd edir ki, artıq bu məsələyə Fransa-İran-Rusiya ittifaqı kimi də baxmaq olar

Eyni zamanda, İran faktoru da unudulmur. Belə ki, Azərbaycan İsrailin əsas strateji tərəfdaşıdır və fransız texnikaları ilə təchiz edilən Ermənistanın silahlanması Tehranın əlinə oynayan "kartdır".

"Hamodia" qeyd edir ki, artıq bu məsələyə Fransa-İran-Rusiya ittifaqı kimi də baxmaq olar. Məqsəd məlumdur - Azərbaycanla İsrailin Qafqazda güclü təsir imkanlarına qarşı birgə müqavimət göstərmək.

Yeri gəlmişkən, ötən ilin dekabrında İsrail parlamentinin 30 deputatı rəsmi şəkildə etiraf etmişdilər ki, fransızların Qarabağa yönəlik münasibətləri İranın xeyrinə atılan addımlardır. Yəni, məqsəd yalnız Azərbaycanın deyil, həm də İsrailin zəifləməsi anlamını daşımaqdadır.

Bənzər yanaşma ABŞ-ın siyasi analitik mediaresursu olan "The Geopolitics" tərəfindən də müşahidə olunub. Nəşr qeyd edib ki, Fransa prezidenti Emmanuel Makronun destruktiv rolu İranın və Rusiyanın regionda möhkəmlənməsinə səbəb olmaqdadır. "Parisin neqativ təsirlərini azaltması lazımdır, çünki bütün bunlar Moskvanın geosiyasi hədəflərinə geniş imkanlar açır", deyə amerikan nəşri vurğulayıb.

### "The Wall Street Journal": "Fransanın addımından sonra İran və Rusiya Cənubi Qafqazdakı maraqlarını daha rahat həyata keçirə biləcəklər"

Amerikanın digər nüfuzlu dərgisi "The Wall Street Journal" isə xəbər vermişdi: "Paris elə bir mövqe tutub ki, İran və Rusiya Cənubi Qafqazdakı maraqlarını daha rahat həyata keçirə biləcəklər". Məqalədə bildirilib ki, Fransanın regional siyasəti Azərbaycanla Ermənistan arasında aparılan danışıqlara ciddi əngəllər yaradır.

İsrailin daha bir nəşri - Vesty isə digər diqqəti cəlb edən faktora toxunub. Saytın analitik bölümündə mövzu ilə bağlı bildirilib ki, fransızların ermənilərə verdiyi silahlar və texnikalar Rusiyanın əlinə keçəcək. Təhlükə isə ondan ibarətdir ki, Rusiya Fransa silahlarına qarşı əks silahlar hazırlaya, yaxud öz kopyalarını istehsal edə bilər. O cümlədən, İran da bu silahları öyrənə və İsrailə qarşı istifadə edə bilər ki, bu da ümumiyyətlə, heç bir maraqlara cavab vermir.

### Paris özünə quyu qazır?

Beləliklə, Paris özünün ermənipərəstlik mövqeyini açıq şəkildə və bu dəfə militarizasiya vasitəsilə nümayiş etdirir və eyni zamanda, Cənubi Qafqaz regionuna daxil olmağa cəhdlər edir. Lakin göründüyü kimi, Fransanın bu siyasəti hətta onun müttəfiqlərində də qıcıq yaradır. Çox yəqin ki, Ermənistanı silahlandırmaq cəhdi Parisə baha başa gələcək - istər hərbi, istərsə də siyasi-diplomatik cəhətindən.

**Afət Tahirqızı**

ANALİTİK





# Haramzadələr...



***Ölüm bəzi hallarda o qədər gözəl nemətdir ki... Lakin bu, həm də elə bir nemət deyil ki, Allah onu hər kəsə bəxş edə. Məsələn, elə hadisələr var ki, onun içərisində olmaqdansa, adın bu məsələlərdə hallanmaqdansa, Vətəni, xalqı, milləti ikinci plana keçirib, pis əməllərlə məşğul olmaqdansa, mala-pula aldanmaqdan, satılmaqdansa, ölüm daha gözəldir. Ancaq dediyim kimi, ölüm nemətdir. O heç də hər kəsə nəsib olmur. Belələrinə Yaradan ölümü çox görər, ona görə ki, öldürüb torpağın altına gömməklə işlərinin bitməsini istəməz. Onların biabırrüsvay olması üçün əməllərinin üstünü açar.***

Azərbaycan Respublikası əleyhinə yönələn kəşfiyyat-pozuculuq fəaliyyətinin qarşısının alınması istiqamətində kompleks araşdırmalar nəticəsində bu günlər bu qəbildən olan insanlıqdan kənarlardan ikisinin-1980-ci il təvəllüdlü Əhmədov Rəşad Əhməd oğlunun və 1991-ci il təvəllüdlü Əmirov Rövşən Musa oğlunun Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən əməlləri faş oldu. Onlar aidiyyəti üzrə tutulub, həbs edildilər.

Xəyanətkarların təvəllüdlərini qeyd etməkdə məqsədimi bildirim ki, bu təvəllüdlər qarşısında dəhşətə gəldim. O mənada ki, hər iki təvəllüdün sahibi elə bu yaşdadır ki, bu hərəkətləri etmələri qəbahətdən də böyük qəbahətdir. Lakin gəlin görək onlar Vətənə necə xəyanət edirmişlər?

Rəşad Əhmədov maddi maraq müqabilində məxfi əməkdaşlığa cəlb olunmaqla Ermənistanın xüsusi xidmət orqanlarının Azərbaycan Respublikasının suverenliyi, ərazi toxunulmazlığı, dövlət təhlükəsizliyi və müdafiə qabiliyyəti zərərinə verdiyi tapşırıqları yerinə yetirmişdir. Bununla o, dövlətə xəyanət etmişdir.

Rəşad Əhmədov ona verilən tapşırıqlar əsasında cəlb etdiyi 1991-ci il təvəllüdlü Əmirov Rövşən Musa oğlu və digər şəxslərlə birgə ölkəmizdə etnik və dini zəmində düşmənçilik salınmasına və Azərbaycan Respublikasının ərazi bütövlüyünün parçalanmasına açıq çağırışları özündə ehtiva edən videomateriallar hazırlamışdır. Həmin videomateriallar Ermənistan xüsusi xidmət orqanları tərəfindən yaradılmış və onların nəzarəti altında Azərbaycan dilində fəaliyyət göstərən "Youtube" kanalları və digər sosial şəbəkələrdə paylaşılmışdır.

Rəşad Əhmədov bütün bunlarla kifayətlənməmiş, Ermənistan xüsusi xidmət orqanlarının himayəsi altında Yerevan Dövlət Universitetində kafedra rəhbəri Qarnik Asatryan və qeyrilərinin xüsusi olaraq məqsədyönlü şəkildə tərtib etdikləri Azərbaycan Respublikası ərazilərinin parçalanmış şəkildə təsvir olunduğu 200 ədəd saxta xəritəni etnik separatizm məqsədilə Azərbaycan Respublikası vətəndaşları arasında yayılmasını təşkil etmişdir. Eyni zamanda, Rəşad Əhmədov Azərbaycan Respublikası vətəndaşlarının guya etnik və dini zəmində iğtişaşlar törətmək niyyətini nümayiş etdirmək məqsədilə Azərbaycan Respublikasının ərazisində partlayış, yanğın və digər ictimai təhlükəli nəticələrin baş verməsi ilə müşayiət olunan hərəkətlərin planlaşdırılması, terror aktları törətməyə razılıq verəcək şəxslərin müəyyən edilməsi, onların birgə cinayətkar fəaliyyətə cəlb olunması və terror-təxribat əməllərinin hazırlanması istiqamətində ona verilmiş digər tapşırıqları da icra etmişdir.

Xəyanətin bütün növlərini həyatına tətbiq edən, satqınlığın, rəzalətin, nankorluğun bütün formalarından istifadə edən bu iki varlıq Vətənin daşı nədir, tozu belə olmağı bacara bilmədilər. Xəyanətə, satqınlığa üstünlük verib Vətəni satdılar. Onların bir adı var, o da haramzadədir. Elə buna görə də bu Vətənin suyu, çörəyi, havası haramınız olsun, deyək.

Əhmədov Rəşad Əhməd oğlu Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 274 (dövlətə xəyanət), 28, 214.1 (terrorçuluğa hazırlıq) və 281.3-cü (xarici təşkilatların və onların nümayəndələrinin tapşırığı ilə dövlət əleyhinə yönələn açıq çağırışlar), Əmirov Rövşən Musa oğlu 274 (dövlətə xəyanət) və 281.3-cü (xarici təşkilatların və onların nümayəndələrinin tapşırığı ilə dövlət əleyhinə yönələn açıq çağırışlar) maddələri ilə cinayət məsuliyyətinə cəlb edilərək barələrində həbs qətimkan tədbiri seçilmişdir. Cinayət işi üzrə araşdırmalar davam etdirilir.

Bu maddələrlə tanış olduqdan sonra isə, bir daha bu qənaətə gəldim ki, həqiqətən də ölüm gözəl nemətdir ki, bunlara qismət olmayıb. Bunlarla yaşıd övladlarımız gedib cəbhədə ermənin 30 il bu xalqın başına açdığı oyunların qisasını alsınlar, bir qarış torpağın düşmən əlində qalmaması üçün canlarını qurban versinlər, bu namərdlər də bizim əbədi düşmənimizlə işbirliyində olsunlar...

Cəzanız aidiyyəti üzrə veriləcək, təbii ki. Bir də, Allah cəzanızı versin, haramzadələr. Yeni -Vətən xaini adınızla həyata necə davam edəcəksiniz, bu barədə düşünürəm...

**Mətanət Məmmədova**

TƏRS BAXIŞ




# İŞĞALDAN sonra yerlə-yeksan olunmuş Ağdamın gələcək ərazisi iki dəfə böyüyəcək



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"" istiqaməti çərçivəsində hazırlanıb.*

# Qarabağ: Ağdamın Azərbaycan iqtisadiyyatındakı rolu

### III Yazı

Azərbaycanın yeraltı sərvətlərlə ən zəngin bölgəsi hesab edilən Qarabağ düşmən tapdağında olduğu müddətdə vandallar tərəfindən ekoloji terrora da məruz qoyulub. Ermənistanın işğalınadək Qarabağda 163 müxtəlif növ faydalı qazıntı yatağı, o cümlədən 5 qızıl, 7 civə, 2 mis, 1 qurğuşun və sink, 1 daş kömür, 16 yeraltı şirin su və 10 müalicəvi mineral su yatağı mövcud olub. Bu sərvətlər işğal dövründə vəhşicəsinə istismar edilərək dünya bazarında satılıb.

### İşğalı 3 milyard itkiyə səbəb olan rayon

Ağdam rayonu potensialına görə Azərbaycan iqtisadiyyatında mühüm paya sahibdir. Respublikanın ən inkişaf etmiş, güclü sənayesi və kənd təsərrüfatı, böyük iqtisadi potensialı olan rayonlardandır. Rayondakı mədəni, elmi, xidməti binalar-məktəblər, xəstəxanalar, muzeylər, kitabxanalar, klublar, tibb məntəqələri, texnikum və kolleclər işğal dövründə vəhşicəsinə talan edilib, yerlə-yeksan olunub.

I Qarabağ müharibəsində Ağdam uğrunda 42 gün davam edən döyüş Ağdamın işğalı ilə sona çatıb. Təcavüz nəticəsində ermənilər Ağdam rayonunun ümumi ərazisinin 77,4 %-ni işğal etməyə nail oldular, Ağdamın rayon mərkəzi ilə birgə 82 yaşayış məntəqəsi, o cümlədən 80 kənd, 1 şəhər və 1 qəsəbəsi işğal olundu. İşğal nəticəsində 128 min insan məcburi köçkün həyatını yaşadı, Ağdam rayonunun 38 kolxozu, 12 sənayesi, 74 məktəbi, 271 mədəniyyət evi, bütün dünyada yeganə olan Çörək muzeyi, 67 idarə və 99 klubu düşmən əlinə keçdi.

Ərazisinin 70 faizdən çoxunu itirən Ağdamın işğalı ilə Azərbaycan iqtisadiyyatı 3 milyard manat vəsait itirdi. 40 min ha-dan çox əkin sahəsi olan və ölkənin ən iri aqrar rayonlarından sayılan Ağdamda kənd təsərrüfatının əsasını heyvandarlıq, taxılçılıq, tərəvəzçilik, bostançılıq, üzümçülük, meyvəçilik təşkil edirdi.

Ağdam ağır yeyinti və yüngül sənayeyə, inkişaf etmiş kənd təsərrüfatına malik bir rayondur. Ağdamda dəzgah avadanlıqları, arekosmik və rabitə cihazları fabriki, traktor və avtomobil təmiri, asfalt, konserv, yağ — pendir, barama toxumu, pambıq, şərab və mexanikləşdirilmiş çörək zavodları, xalça fabriki, taxıl məhsulları fabriki fəaliyyət göstərirdi. Tikinti materialları və ət kombinatları, iki dəmir yolu vağzalı və aeroport, avtomobillərə texniki xidmət stansiyaları vardı. Rayon ərazisinin 1700 hektarı meşəlik, 91,3 hektarı isə kənd təsərrüfatına yararlı torpaqlardan ibarət idi.

### Xalçaçılıq sənəti Ağdam xalça fabriki ilə genişləndirilib

Qarabağ xalçaçılıq ənənələrinin qorunub saxlanılmasında Ağdam xalça fabrikinin böyük rolu olub. Ötən əsrin ortalarına qədər xalça istehsalı fərdi şəkildə evlərdə həyata keçirilirdi. 1939-cu ildə Ağdamda xalça fabriki yaradılıb. Ağdam xalça fabrikinin fəaliyyəti 1980-ci ildən daha da genişlənib və Ağdam Xalçaçılıq İstehsalat Birliyi yaradılıb. Birliyin Bərdə, Xocalı, Şuşa, Baş Güney, Papravənd, Əlimədədli, Mərzilidə filialları, sexləri fəaliyyət göstərirdi. İstehsalat Birliyində ildə 3 min kvadratmetrə yaxın xalça toxunurdu.

XVIII əsrin tarixi-memarlıq abidəsi sayılan general Səməd bəy Mehmandarovun malikanəsində fəaliyyət göstərən Xalça muzeyində 200-dən çox xalça və xalça məmulatı saxlanılırdı. Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü xalçaçılığa da ağır zərbə vurdu. 1992-ci ildə Şuşanın Ermənistan silahlı qüvvələri tərəfindən işğalı ərəfəsində muzey əməkdaşlarının fədakarlığı nəticəsində XIX–XX əsrlərə aid olan xalçalar və digər eksponatlar xilas edilərək Bakıya gətirilib. Muzey-malikanə isə erməni vandalları tərəfindən dağıdılıb. İşğaldan azad edildəndən sonra Qarabağın bərpası prosesində təmir və yenidən qurulacaq abidələr siyahısında Ağdam xalçaçılıq muzeyi də var.




### Dünyada yeganə çörək muzeyi Ağdamda idi

Ağdam şəhərində çörək və çörək məmulatları, əkinçilik alətləri və onların tarixi haqqında muzey fəaliyyət göstərirdi. Muzey ilk dəfə qapılarını 1983-cü ildə açıb. Muzeydə 2800-ə yaxın eksponat var idi. Ağdam Çörək Muzeyi Azərbaycan SSR dövləti tərəfindən yerli mədəniyyət abidəsi kimi qorunurdu. Muzeyə bitişik ərazidə təndirxanası olan "Sünbül" kafesi ziyarətçilərə xidmət göstərirdi. Kompleksə karvansara da daxil idi.

Qarabağ müharibəsində Ermənistan Silahlı Qüvvələrinin hücumları nəticəsində muzeyə iki dəfə mərmi düşmüşdü. Birinci mərmi üçüncü sərgi zalına düşsə də, partlamamışdı. İkinci mərmi isə 1992-ci ilin avqust ayının 12-muzeyə düşən mərmi muzeyi tamamilə məhv etdi. Yanğını söndürməyə cəhd göstərilsə də, muzeyi xilas etmək olmadı və nəticədə muzeydə olan 1500-dək eksponat yanaraq məhv oldu.

Burada undan hazırlanan məhsullar, o cümlədən, Gəncə, Naxçıvan, Qarabağ, Gürcüstan, Ermənistan, Dağıstan, Səmərqənddə bişirilən çörək növləri sərgilənirdi. Həmçinin müxtəlif taxıl növləri, buğdadan hazırlanmış eksponatlar, müharibə dövründə uşaqlara verilən çörək kartoçkaları, eləcə də, buğda dənələrindən düzəldilmiş Azərbaycan xəritəsi nümayiş olunurdu.

Muzeyin eksponatları arasında Ağdam ərazisindəki "Çalağan təpədə" arxeoloji qazıntılar zamanı aşkar edilən və yaşı 3000 ildən artıq olan daşlaşmış buğda da var idi. Keçmiş SSRİ-nin paytaxt şəhərlərində bişirilən 300-dən artıq çörək nümunəsi muzeydə sərgilənirdi. Həmin illərdə muzeydə Azərbaycan Respublikasının bütün bölgələrindən çörək növləri toplanmışdı. Moskvanın Zvezdnıy qorodok şəhərciyindən göndərilən və kosmosu dolanıb gələn çörək nümunələri böyük dəyərə malik idi.

Muzeydə nümayiş olunan eksponatların bir hissəsini muzeyi ziyarətə gələn əcnəbi qonaqlar bağışlamışdılar. Belə eksponatlar arasında ən məşhuru Qalina Konayeva adlı bir qadının Sankt-Peterburq şəhərindən gətirdiyi "blokada çörəyi" idi. İkinci dünya müharibəsi zamanı Sankt-Peterburq şəhəri uzun müddət faşistlərin mühasirəsində qalmışdı. O zaman şəhər əhalisinə adambaşı gündəlik çörək norması olaraq 125 qramlıq qara çörək verilirdi. Konayeva həmin günlərin yadigarı olaraq bir çörək tikəsini saxlamışdı. Televiziyada muzeylə bağlı süjet verildikdən az sonra o, Ağdama gələrək onu muzeyə təqdim etmişdi.

### Viran edilmiş Ağdamdan yeni Ağdama

İşğaldan sonra yerlə-yeksan olunmuş Ağdamın gələcək ərazisi iki dəfə böyüyəcək. "Vaxtilə Ağdam şəhərinin ərazisi 700-800 hektar idi. İndi iki dəfə böyüdürük"- şəhərin Baş planı ilə tanış olanda İlham Əliyev belə demişdi. Yeni Ağdam 100 min nəfər sakin üçün planlaşdırılır. Plana görə, şəhərə onun "tarixi hüdudlarından başqa" bir neçə kənd birləşdiriləcək. Əhalinin 70 faizi şəhər ərazisinin 30 faizində yaşayacaq.

Baş plana görə, Ağdamda 1750 fərdi ev və 23 min mənzilin inşa olunacağı nəzərdə tutulur. Beləliklə, şəhər sakinlərinin üçdə biri fərdi evlərdə yaşayacaq. Ağdam rayonundakı evlərin daha böyük həyətyanı sahələrlə təmin olunacağı bildirilir. Şəhərdə ictimai yaşıllıq məkanları da qurulacaq. Belə ki, hər bir Ağdam sakini evinin 400 metrliyindəki istirahət parkında dincələ biləcək.



İşğalı dövründə rayona vurulan maddi və mənəvi zərər nəhəngdir, lakin əminik ki, dövlətimiz bu işin öhdəsindən gələcək və yaxın illərdə Ağdam rayonu yenidən öz iqtisadiyyatını, mədəniyyətini dirçəldəcək.

**Lalə Mehralı**

SON SƏHİFƏ
Səs
18 may
2023-cü il

## Bayramla əlaqədar 3 gün iş olmayacaq



28 May Müstəqillik Günü ilə əlaqədar ardıcıl 3 gün iş olmayacaq. SİA-nın xəbərinə görə, Əmək Məcəlləsinə əsasən, həftələrarası istirahət günləri və iş günü hesab olunmayan bayram günləri üst-üstə düşərsə, həmin istirahət günü bilavasitə bayram günündən sonrakı iş gününə keçirilir. Bu il 28 may bazar gününə təsadüf etdiyi üçün iş və istirahət günlərinin yeri dəyişdiriləcək, 29 may qeyri-iş günü olacaq. Beləliklə, 27 may da şənbəyə təsadüf etdiyi üçün 3 gün ardıcıl – 27 may, 28 may və 29 may tarixlərində iş olmayacaq.

## Qırmızı diplom alanlara hansı güzəştlər tətbiq oluna bilər?



TƏHSİL EKSPERTİ AÇIQLADI

*“Hesab edirəm ki, qırmızı diplom alan şəxslərə edilə biləcək güzəştlər barədə çox düşünmək lazımdır. Çünki hər qırmızı diplom almış şəxs üçün güzəşt tətbiq etmək sonda təhsil sahəsində mənfi hallara gətirib çıxara bilər. İndiki halda bununla bağlı ağlımda iki təklif var". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Adil Vəliyev deyib.*

O bildirib ki, bunlardan biri necə ki subbakalavrlar 200 bal topladıqda tələbə adını qazanmaq üçün Dövlət İmtahan Mərkəzində qəbul imtahanlarında iştirak etmədən ixtisas seçiminə qatıla bilirlər, eynilə də qırmızı diplom alan bakalavr məzunlarının magistr imtahanında müəyyən bal ilə təmin oluna bilməsidir: ”Həmçinin, bakalavr və magistr diplomu qırmızı olanların dövlət qulluğuna birbaşa qəbuluna icazə verilə bilər. Təbii ki, onlar yenə də müsahibə mərhələsində iştirak etməlidirlər. Çünki bilirik ki, bəzən vəzifəli şəxslərin tanışı olan tələbələrə bir o qədər biliyə malik olmasalar da, bütün qiymətləri əla yazılır və onlar qırmızı diplom alırlar. Yəni, imtahandan azad olunaraq sadə bir müsahibə ilə qırmızı diplom alanların dövlət qulluğuna uyğun olub-olmadığını müəyyən etmək olar. Hesab edirəm ki, bu güzəştlər tətbiq olunsa, ədalətsizlik prinsipi pozulmamış olar”.

*Ləman Əlizadə*

# May ayı – “vay!” ayı?



***Yəqin ki, may ayında evlənən cütlüklərin ailələrinin necə faciəvi şəkildə dağılması, bu ay boşanmaların çox olması ilə bağlı çox əhvalat eşitmisiniz. Ehtimal ki, may ayında evliliklə bağlı böyüklərdən məsləhət aldıqda razı olmayıblar. Əgər belədirsə, yəqin ki, may ayında toy olmaz kimi inancların haradan gəldiyi ilə maraqlanırsınız.***

### Mayda toy edənə 1 əsr əziyyət?

Təəccüblüdür ki, dünyanın bəzi xalqlarının mədəniyyətində yazın sonuncu ayı olan mayda toy şənlikləri keçirilməsi haqqında mənfi fikirlər həqiqətən var. Dünyanın müxtəlif yerlərində may ayında evlənənlərin və onların valideynlərinin hələ də xatırladığı bəzi xoşagəlməz hadisələr barədə kifayət qədər çox əhvalat var. Bəs deyilənlər doğrudurmu? Yoxsa insanlar əslində olması gözlənilən, yaxud təsadüfən baş verən hadisələri səhv anlayırlar?

May toyları ilə bağlı köhnə rus inanclarında da məlumatlar var. Bu mövhumatın mənşəyi ayın adından da irəli gələ bilərdi. Ruslar “may” sözünün “maətsə” sözündən yarandığını düşünürlər, rus dilindən tərcümədə bu söz əziyyət, zülüm çəkmək, pis şəraitdə yaşamaq, özünü əldən salmaq, yorucu işlə məşğul olmaq deməkdir. Buna görə Rusiyada cütlüklər böyüklərin təhriki ilə əsrlər boyu may toylarından qaçırdılar.

Lakin böyüklər bunu təbiətin oyandığı vaxt əkin işlərinin çoxluğu ilə əlaqələndirirlər. Təsəvvür edin, may gəlib, əkin işləri yeni başlayıb, bütün il ehtiyacınızı təmin edəcək məhsulu əldə etmək üçün çox çalışmaq lazımdır, siz isə üstəlik, may ayında toy da planlaşdırmısınız. May ayında, hətta 1 həftə əkin işlərindən uzaqlaşmaq məhsulun itirilməsinə səbəb ola bilərdi. Əgər məhsul bol olmasa gənclər necə evlənəcək? Lap evlənsələr də, bütün ili necə firavan yaşayacaqlar? “Maətsə” sözü necə yerinə düşür burada, deyilmi?

### Dinlərin may toylarına baxışı

Əsrlərdir dildən-dilə, ağızdan-ağıza keçən, lakin kimsə əsaslandırmadığı üçün bir açıqlaması da yoxdur. May ayının əkin-təsərrüfat ayı olduğunu nəzərə alsaq. bu ayda əyləncəyə, toya vaxt ayrılmamasının səbəbini anlayarıq. Amma qədim slavyanların may ayında toy etməmək üçün başqa bir səbəbi var idi. May ayının 11-də slavyanlar əcdadlarına itaət günü kimi qeyd etdikləri ”Bahar babaları” adlı günə ehtiram məqsədi ilə bu ayda toy etmirdilər.

Bəzi astroloqlar da may ayında toy etməyi məsləhət görmürlər. Onların fikrincə, may ayında Günəş ən dağıdıcı ulduzlardan birinin - Alqolun yanından keçir. Alqol sözünün ərəb dilindən tərcüməsi hərfi mənada “şər ruh” deməkdir. Bundan əlavə, may ayında göy cismini daha iki ulduz - Hyades və Pleiades birləşdirir və bu prosesin qadınları bədbəxt edəcəyinə inanılırdı.

Pravoslav kilsəsi istənilən xurafatı qəti şəkildə pisləyir və kahanətə inanmağı qadağan edir. Yəni kilsə may ayında evlənməyə qarşı deyil. Ancaq kilsə qanunlarına görə oruclu olarkən evlənmək, toy etmək doğru deyil. Pravoslav təqviminə görə, may ayında bayramlar çox deyil. Bu o deməkdir ki, kilsə ayın çox hissəsində yeni evlənənlərə toy üçün icazə verir. Amma bu da qadağasız deyildi. Məsələn, xristianlıq çərşənbə axşamı və cümə axşamı (oruc günləri ərəfəsində) toyların keçirilməsini qəbul etmir. Mömin cütlüklər üçün Pasxa həftəsi toylar üçün də tabudur. Digər tərəfdən, kilsə, bazar ertəsi və ya bazar günləri toy kimi müqəddəs mərasimə xidmət etmək üçün gənc bir ailəni evləndirməyə məmnun olur.

Müsəlmanlar xurafatı rədd edən bir xalqdır. İslam ənənələri toyları tarix və aylarla məhdudlaşdırmır, yalnız oruclu ayında toy etməyin doğru olmadığı qənaətindədir, çünki həmin vaxt insanlar axşamadək qida qəbul etmir. Bununla belə, son 100 ilin statistikası göstərir ki, Rusiya inanclarının təsiri altında müsəlmanların may ayında evlənmək istəyi azalıb. Bunu 70 il imperiyanın tərkibində yaşamış xalqların bir-birinə assimlyasiya olması ilə əlaqələndirmək olar. Katolik toyu pravoslavdan çox da fərqlənmir. Katolik inancında yeni evlənənlər may ayının istənilən günündə Allahın hüzurunda evlənə bilərlər.

### Qədim Romada da eyni şeyi düşünürdülər

Qədim Roma şairi Ovidin də may toyları haqqında fikirləri var idi. Onun bayramlara, müqəddəs günlərə həsr olunmuş yazılarına nəzər salsanız, bu zaman toylarla bağlı fikirlər tapa bilərsiniz. Tərcümədə belə fikirlər yaranır: “May günlərində nə dul qadına, nə də qızlara toy edin. Onların ömrü uzun olmayacaq. Əgər inanclara hörmət edirsinizsə, xalq deyir ki, mayda evlənmək yaxşı deyil”.

Həmçinin qədim Romada may ayında “Lemuriya” deyilən tədbir keçirilirdi. Bütün ay ərzində məbədlər bağlanır, camaat ölülərini yada salır, dua oxuyur, onların adına ehsan məclisləri təşkil edirdilər. Həmin dövrdə kəbin kəsilməsi və toylar məbədlərdə keçirilirdi və “Lemuriya” məclisi ilə əlaqədar olaraq məbədlər bağlı olduğu üçün may ayında toylar keçirilmirdi.

Qədim yunan filosofu Plutarx da may ayında toy etməyin qeyri-mümkün olduğuna inanırdı. O, öz əsərlərində mayı “qocaların vaxtı” adlandırırdı. Bu inancın nə ilə əlaqəli olduğu bilinmir və hətta əsrlər keçsə də, onun səbəbini müəyyən etmək çətindir. Hind mifologiyasında hər insanın uğurlu və uğursuz günləri olduğuna inanılır, evlənməyə hazırlaşan cütlüklər üçün həmin günlərdən biri təyin edilir, toy həmin tarixdə reallaşır.

Avropada da may ayında toy edilməməsi ilə bağlı inanclar olub. 1567-ci ilin mayında şotland kraliçası Meri Stüart üçüncü evliliyini edib. Xalq bu hadisənin hökmdar üçün “sonun başlanğıcı” olduğuna inanırdı. Toydan sonra baş verən silsilə hadisələr kraliçanın devrilməsinə və onun məhbus kimi faciəli ölümünə səbəb oldu. Xalq mayda toyun olmaması qənaətində idi. Bu mövhumat bu gün də güclüdür, Şotlandiya və İngiltərədə may ayı bayramlar üçün qeyri-populyar aydır.

“İnsan inandığı ilə sınanır” deyirlər. İnancımız bizə xoşbəxtlik də yaşada bilər, bədbəxtlik də. Əgər bir əhvalat, rəvayət, deyim haqqında elmi araşdırmalar yoxdursa, o elə mif olaraq qalır, həyatımıza heç bir mənfi təsiri olmur. Təbii, insanların özləri buna inanmadıqları təqdirdə...

*Lalə Mehralı*

## ŞOK: “Ölkədə 20-yə qədər saxta “İvanovka” dükanı var”



“Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) uyğun sənədi olmadan heç bir məhsul böyük supermarketlərdə satışa çıxarıla bilməz. Lakin məhəllə marketləri AQTA-nın müvafiq sənədi olmayan məhsulların satış şəbəkəsidir”. Bu sözləri SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirib.

Onun sözlərinə görə, kənd məhsulları adı altında məhəllə marketlərində bir çox qidalar satılır: ”AQTA isə təəssüf ki, bu cür marketləri hələ də əhata edə bilməyib. Məhəllə marketləri konkret olaraq arzuolunmaz məhsulların satış şəbəkəsidir. Bu gün ölkədə 20-yə qədər saxta “İvanovka” dükanı var. Hansı ki, İvanovka kəndindən cəmi iki dükana məhsul gəlir, o da məhdud miqdarda olur.

*Səbinə Hüseynli*

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000